24 iyun 2022 №47 (1920)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## "İqtisadiyyat, siyasət vacibdir, lakin bizi birləşdirən əsas dəyər mədəniyyətdir"



Mədəniyyətimiz, incəsənətimiz, ümumiyyətlə, xalqlarımızın kökləri birdir. Bu gün Azərbaycan dilində oxunan mahnılar, nəğmələr sanki Azərbaycan müğənniləri tərəfindən ifa olunur. Bu, nəyi göstərir? Xalqlarımızın birliyini.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu sözləri iyunun 22-də Özbəkistanın Xivə şəhərində həmkarı Şavkat Mirziyoyevlə birgə özbək sənətçiləri ilə söhbət edərkən deyib.

Xatırladaq ki, iyunun 21-də Özbəkistana dövlət səfərinə gedən Prezident İlham Əliyev paytaxt Daşkənddə keçirilən görüş və tədbirlərdən sonra ertəsi gün Xarəzm vilayətinin inzibati mərkəzinə – ölkənin qərbindəki Ürgənc şəhərinə gəlib. Hava limanında İlham Əliyevi Özbəkistanın dövlət başçısı Şavkat Mirziyoyev qarşılayıb. Sonra prezidentlər Xarəzm vilayətinin Xivə şəhərinə gediblər.

Xivə şəhərində Prezident Şavkat Mirziyoyev tərəfindən Azərbaycan Prezidentinin şərəfinə rəsmi qəbul təşkil edilib.

Qəbulda konsert proqramı təqdim olunub. Dövlət başçıları Özbəkistan incəsənət ustalarının çıxışlarını dinləyib, onlarla söhbət ediblər.

*davamı səh. 2-də*

## Vokalçıların Bülbül adına müsabiqəsinə Şuşada yekun vuruldu

### 25 il öncə təməli qoyulan müsabiqəyə ilk dəfə sənətkarın yurdu da ev sahibliyi etdi

Xəbər verdiyimiz kimi, 16-22 iyun tarixində Vokalçıların Bülbül adına VIII Beynəlxalq müsabiqəsi keçirilib.

Azərbaycan vokal məktəbinin banisi, SSRİ Xalq artisti Bülbülün anadan olmasının 125 illiyinə həsr olunan müsabiqədə Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Monqolustan, İsrail, Rusiya və digər ölkələrdən 100-ə yaxın vokalçı iştirak edib. 18-35 yaş aralığında olan iştirakçıların sırasında opera müğənniləri, orta və ali musiqi təhsili müəssisələrinin məzunları və tələbələri yer almışdı.

Bakıda, M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında keçirilən dinləmələrdə iştirakçıların ifaları beynəlxalq münsiflər heyəti tərəfindən qiymətləndirilib.

Münsiflər heyətinin qərarı ilə Qran-pri mükafatına Azərbaycan təmsilçisi Elmina Həsənova layiq görülüb. Həmçinin 1-ci (Ankhbayar Enkhbold, Monqolustan), 2-ci (Nikita Volkov – Rusiya və Olqa Rudik – Ukrayna) və 3-cü (Baluan Berkenov – Qazaxıstan, Aleksandra Sokolova – Rusiya, Həmid Əbdülov – Azərbaycan) yerlər, eləcə də həvəsləndirici (4-cü yer) və müsabiqənin xüsusi mükafatçıları elan olunub.




İyunun 22-də mədəniyyət paytaxtımız və Bülbülün doğma yurdu Şuşa şəhərində müsabiqənin yekun qala-konserti və laureatların mükafatlandırılması mərasimi keçirilib. Şuşanın əsrarəngiz təbiətindən ilham alan ifaçıların çıxışları alqışlarla qarşılanıb.

Xatırladaq ki, Bülbül adına birinci beynəlxalq müsabiqə görkəmli müğənninin 100 illiyi ərəfəsində, 1997-ci ildə Prezident Heydər Əliyevin müvafiq sərəncamı ilə keçirilib.

25 illik tarixi ərzində müsabiqəyə ilk dəfə Bülbülün doğma yurdu da ev sahibliyi edib.

## III "Azerbaijan Design Award" müsabiqəsi başa çatdı

İyunun 22-də Bakı Konqres Mərkəzində yerli və beynəlxalq dizaynerlərin III "Azerbaijan Design Award" ("Azərbaycan dizayn mükafatı") müsabiqəsinin yekun tədbiri keçirilib.

Mədəniyyət Nazirliyinin dəstəyi və Azərbaycan Dizaynerlər Assosiasiyasının təşkilatçılığı ilə gerçəkləşən tədbirdən əvvəl qonaqlar müxtəlif dizayn təşkilatlarından və nominasiya üzrə təqdim edilən işlərdən ibarət sərgi ilə tanış oldular.

Tədbirdə çıxış edən mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev dedi ki, xalq olaraq biz bu coğrafiyada və tarixdə həmişə dizayn işi ilə məşğul olmuşuq: "Bizdən qabaq bu torpaqlarda yaşayan əcdadlarımız həmişə dövlət, bayraq, fikir, fəlsəfə dizaynı veriblər. Bu, zamanla bizim mədəniyyətimizin bir hissəsinə çevrilib. Tariximizin yeni səhifəsində bizim və bizdən sonrakı nəsillərin üzərinə böyük məsuliyyət düşür. Bu gün burada rahat şəkildə belə tədbirləri keçirməyimiz, ilk növbədə Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında şücaət göstərən Ordumuzun, əsgərlərimizin səylərinin nəticəsidir. Biz bu Qələbə əzmi ilə işğaldan azad edilən torpaqlarla bu coğrafiyanın dizaynında böyük bir dəyişikliklər etdik. Bu Qələbəni və əzmi qorumaq və mədəni irsimizə sahib çıxmaq üçün hər birimiz öz sahəmizdə peşəkar olmalıyıq".



*davamı səh. 2-də*

## İranla kino sahəsində əməkdaşlıq imkanları müzakirə olunub

Mədəniyyət naziri Anar Kərimov 20-21 iyun tarixlərində İranda səfərdə olub. Səfər çərçivəsində İranın Mədəniyyət və İslam İrşadı Nazirliyinin nəzdində fəaliyyət göstərən Kino və Audiovizual İşlər Təşkilatının rəhbərliyi ilə də görüş keçirilib.

Anar Kərimov ölkəmizdə kino sahəsinin inkişafının mədəniyyət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu bildirib, yeni yaradılan Azərbaycan Respublikası Kino Agentliyi haqqında məlumat verib.

*səh. 3*

## UNESCO-nun yaradıcı şəhərləri Şəki, Bakı və Lənkəranla bağlı təbliğat aparılır

Məlum olduğu kimi, UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinə Azərbaycandan 3 şəhər – Şəki (2017, "sənət və sənətkarlıq" tematikası) və Bakı (2019, "dizayn" tematikası) və Lənkəran (2021, "qastronomiya" tematikası) daxil edilib.

Yaradıcı Şəhərlər Şəbəkəsinə daxil olan şəhərlərin beynəlxalq təqdimatı və təbliği, yerli şəhər yaradıcılığı və kreativliyinin inkişafı istiqamətində Mədəniyyət Nazirliyi və Azərbaycan Yaradıcı Sənayelər Federasiyası birlikdə sosial şəbəkə hesabları üzərindən təbliğat-maarifləndirmə işlərinə start verib.

Mədəniyyət Nazirliyi və tərəfdaşları həmin postların və məlumatların milli və beynəlxalq səviyyədə populyarlaşması üçün geniş ictimaiyyəti qeyd olunan səhifələri izləməyə dəvət edir. Bununla yanaşı, adıçəkilən yaradıcı şəhərlərlə bağlı izləyicilər tərəfindən hər hansı maraqlı məzmunun paylaşılması istəyi olacağı təqdirdə həmin məlumatları acif@creative.az və info@gci.az elektron poçtlarına göndərilməsi xahiş olunur.

UNESCO — United Nations Educational, Scientific and Cultural Organization · Creative Cities Network

Azərbaycanın UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinə daxil olan 3 şəhərinin "Facebook" və "İnstagram" sosial şəbəkələrində müvafiq səhifələri var.

## "Görünməz adam"ın sənət dünyası

Azərbaycan qrafikasının altmışıncı illərə təsadüf edən inkişafı və əldə olunan müvəffəqiyyətlərin kökündə bu sahədə ciddi rəqabətin mövcudluğu dururdu, desək, yanılmarıq.

Həmin dövrdə qrafika ilə Ələkbər Rzaquliyev, Cəmil Müfidzadə, Altay Hacıyev, Nazim Babayev, Yusif Hüseynov, Rafiq Mehdiyev, Maral Rəhmanzadə, Elmas Hüseynov və Elmira Şahtaxtinskaya kimi sənətkarlar məşğul olurdular. Bəyim Hacızadənin bu sahənin seçilənləri sırasına daxil olması yalnız onun fərdi qrafika estetikası nümayiş etdirməsi sayəsində mümkün idi.

*səh. 7*

## "Qarabağ gecəsi" adlı xeyriyyə konserti keçiriləcək




İyunun 26-da Azərbaycan Dövlət Akademik Filarmoniyasının səhnəsində Qarabağ Dirçəliş Fondunun təşəbbüsü və təşkilatçılığı, Mədəniyyət Nazirliyinin təşkilati dəstəyi ilə "Qarabağ gecəsi" adlı xeyriyyə konserti keçiriləcək.

Konsertdə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Qarabağ Dirçəliş Fondu müşahidə şurasının üzvü, Xalq artisti Fərhad Bədəlbəyli, Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin bədii rəhbər və baş dirijoru, Xalq artistləri Fəxrəddin Kərimov, Samir Cəfərov, Əməkdar artistlər Aygün Zeynalova, Aygün Bəylər, Arzu Əliyeva, Ceyla Seyidova, "Muğam" televiziya müsabiqəsi qalibləri Günay İmamverdiyeva, Babək Şuşalı və ifaçı Cəlal Kərimov çıxış edəcəklər.

Bədii hissədən sonra filarmoniyanın yay zalında rəsmi ziyafət olacaq.

Konsert və ziyafət üçün biletləri Qarabağ Dirçəliş Fonduna müraciət edərək, həmçinin "iTicket.az" saytından və satış məntəqələrindən əldə etmək mümkündür.

Konsertdən əldə olunan vəsait işğaldan azad edilən ərazilərin bərpası və yenidən qurulması istiqamətində həyata keçirilən tədbirlərə yönəldiləcək.

## Ordum da var, yurdum da...

26 iyun Azərbaycan Silahlı Qüvvələr Günüdür. 1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti ilk ələhiddə diviziyanın yaradılması barədə qərar qəbul edib. Prezident Heydər Əliyevin 22 may 1998-ci il tarixli fərmanı ilə 26 iyun Silahlı Qüvvələr Günü elan olunub. Əlamətdar gün münasibətilə bölgələrdəki mədəniyyət müəssisələrində tədbirlər keçirilib, Azərbaycan xalqına əbədi Zəfər ruhu bəxş edən, əzəli torpaqlarımızı yağıdan qurtaran Ordumuzun qəhrəmanlığından söz açılıb.



Bərdə RMİ Bərdə Dövlət Rəsm Qalereyasında "Müzəffər Ordumuz" adlı tədbir təşkil edilib. İdarənin rəisi Vəsilə Möhsümova deyib ki, Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu 30 ilə yaxın müddət ərzində düşmən tapdağı altında qalan torpaqlarımızı işğaldan azad edib, əsgər və zabitlərimiz qəhrəmanlıq dastanı yaradıblar. Çıxış edən hərbçilər Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış parlaq Qələbə barədə danışıblar. Sonra konsert proqramı təqdim olunub. Bir qrup hərbi qulluqçu mədəni-kütləvi tədbirlərdə fəal iştirakına görə regional idarənin fəxri fərmanı ilə təltif edilib.

Regional idarənin rəisi və mədəniyyət işçiləri Yevlax şəhərindən olan Vətən müharibəsi şəhidi Sadiq Əsgərovun ailəsinə baş çəkiblər.

*davamı səh. 4-də*

## Akademik Musiqili Teatrda caz-tamaşa



*səh. 3*

## Regional idarələrdə çalışan dövlət qulluqçuları üçün təlimlər

*səh. 3*

## Dövlət Uşaq Filarmoniyası Gəncədə çıxış edib



*səh. 5*

# "İqtisadiyyat, siyasət vacibdir, lakin bizi birləşdirən əsas dəyər mədəniyyətdir"

## Şavkat Mirziyoyev: "Heç bir niyyətimiz, amalımız mədəniyyətsiz, mədəniyyətlə təmasda olmadan reallaşa bilməz"



əvvəli səh. 1-də

Prezident Şavkat Mirziyoyev sənətçilərə maraqlı konsert proqramına görə minnətdarlığını bildirərək deyib: "Biz dünəndən dostluğumuz, əlaqələrimiz haqqında danışır və müzakirələr aparırıq. Lakin bu gün bizə bunu əməli olaraq sənət ilə göstərdiniz. Son illər bizim mədəniyyətimizə, tariximizə, ümumiyyətlə, makomumuza və muğamımıza ehtiramla yanaşmağımız təqdirəlayiqdir. İllər ötəcək, əsrlər keçəcək və gələcəkdə siz bu mədəniyyətin iştirakçıları olacaqsınız. Övladlarınız, qonşularınız, dostlarınız həmişə bu mədəniyyət ilə təmasda olacaqlar".

Özbəkistan Prezidenti qeyd edib ki, iki xalqın mədəniyyətinin, tarix və soykökünün tərənnümü olan konsert proqramı bizim birliyimizi göstərir.

Prezident İlham Əliyev Daşkənddə, eləcə də Xarəzm vilayətində, Xivədə olmaqdan məmnunluğunu bildirərək deyib: "Dünən və bu gün bir daha gördüm ki, xalqlarımız bir-birinə nə qədər yaxındır. Mədəniyyətimiz, incəsənətimiz, ümumiyyətlə, xalqlarımızın kökləri birdir...".

İlham Əliyev vurğulayıb ki, bu gün yeni Özbəkistanı mən özüm üçün kəşf etdim: "Yeni Özbəkistanın həyatı uğurlu olsun, xeyirli olsun. İnşallah, hamımız – özbək və Azərbaycan xalqları bir yumruq kimi birlikdə olacağıq".

Şavkat Mirziyoyev Prezident İlham Əliyevlə aparılan danışıqların əhəmiyyətini vurğulayaraq ikitərəfli əlaqələrdə mədəniyyətin müstəsna yeri olduğunu bildirib: "Gələcək əməkdaşlığımızla bağlı böyük planları müzakirə etdik. Mən bir məsələni sizlərə bildirmək istəyirəm ki, iqtisadiyyat, siyasət vacibdir, lakin bizi birləşdirən əsas dəyər mədəniyyətdir. Düşünürəm ki, bizləri birləşdirən möhkəm vasitə mədəniyyətdir. Biz razılaşdıq ki, heç olmasa, üç aydan bir qarşılıqlı səfərlər reallaşdıraq, gediş-gəlişi artıraraq mədəni birliyimizi yeni müstəviyə qaldıraq".

Özbəkistan rəhbəri Azərbaycan Prezidenti ilə bu ilin noyabrında Səmərqənddə yenidən görüşmək barədə razılaşdıqlarını deyərək incəsənət ustalarına həmin görüşədək Azərbaycan muğamları və özbək makomlarından ibarət konsert proqramı hazırlamağı tövsiyə edib: "Muğam və makom sənətinə dair Füzuli, Nəvai şeirləri əsasında birgə konsert təşkil etmək necə də gözəl olar. Düşünürəm ki, buna bir ay hazırlaşsanız, nə qədər yüksək nəticə əldə edə bilərsiniz. Heç bir niyyətimiz, amalımız mədəniyyətsiz, mədəniyyətlə təmasda olmadan reallaşa bilməz".

Prezident İlham Əliyev həmkarı Şavkat Mirziyoyev ilə birlikdə Özbəkistanın qədim mədəniyyət mərkəzi Xivə şəhərinin məşhur məkanlarını da ziyarət edib.

Dövlət başçıları Xivə şəhərində "Nurullaboy" saray kompleksinə baş çəkiblər. Bildirilib ki, əzəməti və gözəlliyi ilə məşhur olan "Nurullaboy" saray kompleksi Xivə xanı II Məhəmməd-Rəhimbayanın əmri ilə 1906-1912-ci illərdə tikilib. Dörd hissədən ibarət saray kompleksinə ümumilikdə 100-dən çox zal və otaq daxildir. Qala divarı üzərində yarımdairəvi qüllələr ucaldılıb. Rusiya imperatoru II Nikolay kompleksin tikintisi başa çatdıqdan sonra saraya iki çılçıraq və kiçik bir elektrik stansiyası bağışlayıb.

"Nurullaboy" sarayı milli və Avropa memarlıq üslublarının vəhdəti əsasında inşa olunub. Bu da həmin dövrdə şəhərsalma sahəsində üstünlük təşkil edən üslubla əlaqədardır. Qızılı və rəngli rəsmlərlə örtülmüş məşhur Xivə oymaları sarayın cəlbediciliyini daha da artırır. Saray kompleksində daimi rəsm sərgiləri fəaliyyət göstərir, tarixi sənədlər, milli geyim nümunələri nümayiş olunur.

Prezidentlər İlham Əliyev və Şavkat Mirziyoyev Xivə şəhərində İçan-Qala Dövlət Tarixi Memarlıq Muzeyində də olublar. Məlumat verilib ki, İçan-Qala Dövlət Tarixi Memarlıq Muzeyi 1920-ci ildə yaradılıb. 1969-cu ildə tarixi İçan-Qala şəhəri muzey-qoruq elan edilib. Xivə şəhəri qədim Xivə xanlığının paytaxtı olub.

İçan-Qala da daxil olmaqla, Xivə şəhəri 1990-cı ildə UNESCO-nun Dünya irs siyahısına daxil edilib. Sarayı gəzdikcə divarlarda diqqətçəkən mavi ornamentlər göz oxşayır, insan bir anlıq özünü Orta əsrlər saray dövründə təsəvvür edir. Muzeyin fondunun əsasını xan dəftərxanasının sənədləri və sarayın müxtəlif əşyaları təşkil edir. Ümumi sahəsi 26 hektar olan muzeydəki ekspozisiyalar Özbəkistanın qədim tarixini və müasir dövrünü əlaqələndirir. Burada Xivə xanlığının, qədim Xarəzmin tarixi, etnoqrafiyası, sənət nümunələri, müxtəlif kolleksiyalar ilə bağlı 14 stasionar muzey və ekspozisiyalar var.

### "Biz güclü olanda məcbur edəcəyik ki, bizə hörmət etsinlər"

Qeyd edək ki, prezidentlərin iyunun 21-də Daşkənddə keçirilən görüşündə də iki ölkə arasında mədəni-humanitar əlaqələrin əhəmiyyəti vurğulanıb.

Azərbaycan-Özbəkistan sənədlərinin imzalanması mərasimindən sonra Şavkat Mirziyoyev mətbuat üçün bəyanatında qeyd edib ki, iki ölkənin münasibətlərinin əsasını ortaq mənəvi dəyərlər, din, oxşar mədəniyyətlər və dil təşkil edir: "Xalqlarımızı çoxəsrlik tarix bağlayır. Əhməd Fərqaninin və Əbu Reyhan Büruninin elmi əsərlərində Azərbaycanın bir çox şəhərləri xatırlanır, bu şəhərlərdə Şərq və Qərb sivilizasiyaları bir-birinə qarşılıqlı təsir göstərir. Bizim Şərqşünaslıq İnstitutunun fondlarında Nizami, Xaqani, Tusi, Füzuli, Xətai və bir çox başqa Azərbaycan şairlərinin və mütəfəkkirlərinin onlarca nadir əlyazmaları qayğı ilə qorunub saxlanır. Füzulinin əlyazmalarından birini mən bu gün hörmətli İlham Heydər oğluna hədiyyə etdim. Fikrimcə, bu, bizim sərvətimizdir. Özbəkistanda belə əlyazmalar çoxdur. Bu, bir daha onu göstərir ki, özbək xalqı əsrlər boyu Azərbaycan mədəniyyətinə böyük hörmət və maraq bəsləyib. Xüsusi qeyd etmək istəyirəm ki, özbək ədəbiyyatının və poeziyasının banisi Əlişir Nəvai böyük Nizami Gəncəvinin əsərlərindən ilham alırdı, Nizamini "şairlərin şahı" adlandırırdı. O, Nizamiyə belə qiymət verirdi".




Özbəkistan Prezidenti bildirib ki, mədəni-humanitar sahədə də bizi qədimdən bağlayan ümumi cəhətlər çoxdur: "Özbəkistanda Azərbaycan muğamını, Azərbaycanda isə bizim makomları nəinki məmnuniyyətlə dinləyir, həm də ifa edirlər. Azərbaycan və özbək estradası hər iki ölkədə çox populyardır. Biz azərbaycanlı dostlarımıza təşəkkür edirik ki, bu yaxınlarda Bakıda Əlişir Nəvainin məşhur ədəbiyyatşünas Ramiz Əskər tərəfindən tərcümə edilmiş kitabları nəşr edilib. Özbəkistanda da Azərbaycan klassiklərinin və müasir yazıçılarının əsərləri müntəzəm olaraq nəşr edilir...".

Şavkat Mirziyoyev Azərbaycan Prezidenti ilə danışıqlar zamanı qarşılıqlı mədəniyyət və kino günlərinin keçirilməsi, humanitar və turizm mübadiləsi proqramının fəal inkişafı barədə razılığa gəldiklərini də diqqətə çatdırıb.

"Biz, həmçinin beynəlxalq gündəliyin aktual məsələlərinə dair fikir mübadiləsi apardıq, hərbi və hərbi-texniki əməkdaşlıq sahəsində planlar cızdıq... Beləliklə, bir daha demək istəyirəm, biz hər şeyi edirik ki, güclü Özbəkistan və güclü Azərbaycan olsun. Onlar güclü olanda məcbur edəcəyik ki, bizə hörmət etsinlər və bundan ötrü bizim hər cür əsasımız var", – deyə Şavkat Mirziyoyev vurğulayıb.

Prezident İlham Əliyev də bəyanatında səfər zamanı ikitərəfli münasibətlərin geniş spektrinin diqqət mərkəzində olduğunu vurğulayıb. Səfərin Daşkəndin mərkəzində ümummilli lider Heydər Əliyevin adını daşıyan meydanın açılışı ilə başlanmasının əlamətdar hadisə olduğunu deyən dövlət başçısı qeyd edib ki, Heydər Əliyev Azərbaycana rəhbərliyi zamanı Özbəkistanla münasibətlərə böyük önəm verib: "Mən atamın işinin davamçısı kimi, Azərbaycan Prezidenti kimi öz fəaliyyətimdə bizim ikitərəfli münasibətlərə daim xüsusi diqqət ayırıram. Bugünkü dövlət səfəri bunun əyani təsdiqidir".

Prezident həmkarı Şavkat Mirziyoyev ilə imzaladığı "Strateji tərəfdaşlığın dərinləşdirilməsi və qarşılıqlı fəaliyyətin genişləndirilməsi haqqında siyasi Bəyannamə"nin önəmini xüsusi qeyd edib: "Bu, mahiyyətcə gələcək fəaliyyətimizin yol xəritəsidir. Orada xarici siyasətimizin prioritetləri əksini tapıb, dövlətlərimizin ərazi bütövlüyünün, müstəqilliyinin, suverenliyinin qarşılıqlı dəstəklənməsi ifadə olunub, eləcə də həyat fəaliyyətinin müxtəlif istiqamətləri üzrə konkret məsələlər və hədəflər müəyyən edilib. Hərbi və hərbi-texniki sahələrdə nəzərdə tutulan əməkdaşlığı xüsusi qeyd etmək istərdim. Bu sahə hər bir ölkə üçün, xüsusən bizim ölkələr üçün prioritet əhəmiyyət kəsb edir. Bizim yerləşdiyimiz regionlar təhlükəsizliyin və müdafiə qabiliyyətinin möhkəmlənməsi məsələlərinə gündəlik diqqət tələb edir...".

# Rəsul Rzanın Bakıda ev-muzeyi yaradılacaq

Prezident İlham Əliyev iyunun 23-də Xalq şairi Rəsul Rzanın Bakı şəhərində ev-muzeyinin yaradılması haqqında sərəncam imzalayıb.

Sərəncamda qeyd olunur ki, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, Dövlət Mükafatı laureatı Rəsul Rza milli poetik fikir salnaməsinə yeni səhifələr yazan novator sənətkar kimi böyük şöhrət qazanıb. Şair ana dilinin zənginliklərindən uğurla faydalanaraq, yarım əsrə yaxın dövr ərzində daim yüksək bədii dəyəri ilə seçilən çox sayda əsərlər yaradıb, eyni zamanda ölkənin ictimai və mədəni həyatında yaxından iştirak edərək, genişmiqyaslı dolğun fəaliyyəti ilə tanınıb.

Sərəncamda Nazirlər Kabinetinə Bakı şəhəri, Səbail rayonu, Rəsul Rza küçəsi 21/26, mənzil 18 ünvanında Rəsul Rzanın ev-muzeyinin yaradılması ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsini təmin etmək tapşırılıb.

Qeyd edək ki, Xalq şairi Rəsul Rzanın Göyçay şəhərində ev-muzeyi fəaliyyət göstərir. 2004-cü ildə yaradılan muzeyin binasında 2010-cu ildə əsaslı təmir aparılıb, muzeyin qarşısında şairin büstü qoyulub.

# Tacikistan rəsmlərdə

## Diplomatik əlaqələrin 30 illiyinə həsr olunan sərgi



Yasamal Rayon Heydər Əliyev Mərkəzində "Azərbaycan və Tacikistan mədəni əlaqələri nəsildən-nəslə" adlı sərgi təşkil edilib. İyunun 22-də açılan sərgi iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının (29 may) 30 illiyinə həsr olunub.

Tədbirdə rayonun icra başçısı Elşad Həsənov, Tacikistanın ölkəmizdəki səfiri Rustam Soliyev, Türkiyə səfiri Cahit Bağcı, Gürcüstan səfiri Zurab Pataradze, Əfqanıstan səfiri Amanullah Ceyhun, Meksika səfiri Xuan Flores və başqa qonaqlar iştirak ediblər.

Qonaqlar mərkəzdə ümummilli liderin siyasi fəaliyyətini əks etdirən foto və eksponatlarla tanış olublar.

Mərkəzin direktoru Naminə Ömərova qonaqları və rəssamları salamlayıb. Tacikistan səfiri Rustam Soliyev bildirib ki, bu cür mədəniyyət tədbirləri iki xalq arasında əlaqələrin daha da yaxınlaşmasına xidmət edir.

Sərgi layihəsinin rəhbəri və təşkilatçıları Elnurə və Aygün İsgəndərovalar nümayiş etdirilən rəsmlər barədə məlumat veriblər. Bildirilib ki, sərgidə 70 rəssamın 70 əsəri nümayiş olunur. Əsərlərdə Tacikistanın təbiət mənzərələri, mətbəxi, adət-ənənələri əks etdirilib.

Sonda rəssamlar diplomlarla təltif olunublar.

**Lalə**

# III "Azerbaijan Design Award" müsabiqəsi başa çatdı






əvvəli səh. 1-də

Elnur Əliyev qeyd etdi ki, Mədəniyyət Nazirliyinin əsas məqsədlərindən biri də yaradıcı sənayeyə dəstək göstərməklə bu sahənin inkişafı ilə iqtisadiyyatımıza töhfə vermək və həmçinin yaradıcı insanlarımızın dünyaya çıxışını təmin etməkdir. Tədbirin önəmindən danışan nazirin birinci müavini belə görüşlərin yeni istedadların və kreativ düşüncə sahiblərinin üzə çıxarılmasında yardımçı olduğunu vurğuladı. Diqqətə çatdırdı ki, bu il Prezident İlham Əliyev tərəfindən 2022-ci ilin ölkəmizdə "Şuşa İli" elan edilməsi ilə bağlı Mədəniyyət Nazirliyinin təklifi əsasında dizayn müsabiqəsinin kateqoriyaları sırasına Şuşa mövzusu da əlavə olunub.

Azərbaycan Yaradıcı Sənayelər Federasiyası (AYSF) İdarə heyətinin sədri Vasif Eyvazzadə federasiyanın fəaliyyəti haqqında geniş məlumat verdi. Vurğuladı ki, bu sahədə təhsilin təkmilləşdirilməsi, müasirləşdirilməsi günün tələbidir. O, həmçinin dizayn sahəsində AYSF-nin təşəbbüsü ilə inklüzivliyin tətbiqinin vacibliyinə diqqət çəkdi.

Azərbaycan Dizaynerlər Assosiasiyasının sədri Rəhim İsmayıl, sədr müavini Ramin Nəsirov, rəssam Faiq Əhməd, dizaynerlər Knyaz Yaqubov, Nizami Ağa müsabiqə ilə bağlı fikirlərini bölüşdülər.

Çıxışlardan sonra "Şuşa İli", "Sənaye", "Tətbiqetmə", "İnteryer", "Eksteryer", "Reklam", "İllüstrasiya", "Qablaşdırma dizaynı", "Brendinq", "Veb", "Çap" dizaynları nominasiyaları üzrə I, II və III yerlərin qalibləri elan olundu.

Qeyd edək ki, 2018-ci ildən keçirilən "Azerbaijan Design Award" müsabiqəsi ölkənin ən böyük canlı dizayn auditoriyasını özündə cəmləşdirərək dizayn sahəsinin inkişafı istiqamətində görülən işlərə töhfə verir. Yerli və beynəlxalq dizaynerlər üçün ödənişsiz təşkil olunan müsabiqə ölkədə dizayn bacarıqlarını inkişaf etdirmək və istedadlı şəxsləri üzə çıxarmaq məqsədi daşıyır. Müsabiqə çərçivəsində müxtəlif mövzular üzrə yerli və xarici dizaynerlər tərəfindən təqdim olunan layihələr azərbaycanlı mütəxəssislər də daxil olmaqla beynəlxalq münsiflər heyəti tərəfindən qiymətləndirilir.

**L.Azəri**

# "Kitabxanalar ictimai yaddaş institutları kimi"

İyunun 23-də M.İ.Rudomino adına Ümumrusiya Dövlət Xarici Ədəbiyyat Kitabxanası "Kitabxanalar ictimai yaddaş institutları kimi" mövzusunda onlayn dəyirmi masa təşkil edib.

Tədbirdə Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirovun videoçıxışı təqdim olunub. Direktor qeyd edib ki, Milli Kitabxana 2020-ci ildə 2 cildlik "Azərbaycan 1941-1945-ci illər Böyük Vətən müharibəsində" adlı Azərbaycan və rus dillərində fundamental biblioqrafiya hazırlayaraq nəşr edib. Azərbaycan dilində materialları əhatə edən cilddə mövzu üzrə zəngin material toplanıb. Biblioqrafik göstəricidə müharibə zamanında və sonrakı illərdə dərc edilmiş materiallar ayrı-ayrı mövzular üzrə qruplaşdırılıb, müharibə illərində respublikanın fəaliyyəti və qələbənin qazanılmasında nəhəng xidmətinin salnaməsi tərtib edilib. Biblioqrafik göstəricinin 2-ci hissəsi rus dilində nəşr olunub.

K.Tahirov "Azərbaycan Milli Kitabxanası Böyük Vətən müharibəsi illərində: 1941-1945-ci illər" adlı kitabının da dərc edildiyini, Milli Kitabxananın əməkdaşları tərəfindən "Böyük Qələbə" adlı elektron məlumat bazasının hazırlandığını da iştirakçıların diqqətinə çatdırıb.

Dəyirmi masada Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyi humanitar proqramlar bölməsinin rəhbəri Tamilla Əhmədova çıxış edərək Azərbaycan xalqının İkinci Dünya müharibəsi illərində ön və arxa cəbhədə fəaliyyətindən bəhs edib.

Sonra Azərbaycan Milli Kitabxanasının əməkdaşı Pərvanə Qurbanova kitabxananın fondundan hazırlanan resursları iştirakçılara təqdim edib. O, ölkəmizin 1941-1945-ci illər müharibəsində iştirakı, eləcə də kitabxananın həmin dövrlərdəki fəaliyyəti haqqında geniş məlumat verib, müharibədə Sovet İttifaqı Qəhrəmanı olmuş azərbaycanlılardan yeddi nəfərin döyüş yolu haqqında danışıb.

A.S.Puşkin adına kitabxananın əməkdaşları qəhrəman Azərbaycan oğullarının 1941-1945-ci illər müharibəsində göstərdikləri şücaətdən bəhs edən təqdimat ediblər.

Sonda dəyirmi masanın nəticələri, iştirakçıların fikirləri və gələcək əməkdaşlıq sahələrinin müəyyən edilməsi barədə fikir mübadiləsi aparılıb.

# İranla kino sahəsində əməkdaşlıq imkanları da müzakirə olunub

Xəbər verdiyimiz kimi, mədəniyyət naziri Anar Kərimov 20-21 iyun tarixlərində İranda səfərdə olub. Anar Kərimov səfər zamanı İranın mədəniyyət və islam irşadı naziri Məhəmməd Mehdi İsmaili, milli irs, əl işləri sənayesi və turizm naziri İzətullah Zərqami, İslam Mədəniyyəti və Əlaqələri Təşkilatının sədri Məhəmməd Mehdi İmanpur, İranın Milli Kitabxana və Arxiv İdarəsinin müdiri Əlirza Muxtarpur və digər rəsmilərlə görüşüb.



Səfər çərçivəsində İranın Mədəniyyət və İslam İrşadı Nazirliyinin nəzdində fəaliyyət göstərən Kino və Audiovizual İşlər Təşkilatının rəhbərliyi ilə də görüş keçirilib.

Anar Kərimov ölkəmizdə kino sahəsinin inkişafının mədəniyyət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu bildirərək, yeni yaradılan Azərbaycan Respublikasının Kino Agentliyi haqqında məlumat verib.

Söhbət zamanı İranın kino sahəsində geniş təcrübəyə malik olduğu, bu sahədə qarşılıqlı əməkdaşlığın faydalı olacağı qeyd olunub. Bu kontekstdə müştərək kino festivallarının, qarşılıqlı kino həftələrinin təşkilinin əməkdaşlığın dərinləşdirilməsinə töhfə verəcəyi vurğulanıb. Həmçinin kino sahəsində mütəxəssislərin qarşılıqlı səfərləri, təcrübə mübadiləsinin aparılmasının vacibliyinə toxunulub. Anar Kərimov ölkəmizin Qarabağ həqiqətlərinin dünyaya çatdırılması üçün sənədli filmlərin çəkilməsinə də xüsusi önəm verdiyini diqqətə çatdırıb.

Görüşdə birgə bədii, sənədli filmlərin, qısametrajlı, eləcə də cizgi filmlərinin çəkilməsi üçün mövcud imkanların istifadə edilməsinin vacibliyi qeyd olunub. Sonda Azərbaycan nümayəndə heyəti İranın kino tarixindən bəhs edən muzeylə tanış olub.

# Vokal məktəbimizin əfsanəsi

## Musiqi Mədəniyyəti Dövlət Muzeyində Bülbülün 125 illiyi qeyd edildi



İyunun 22-də Azərbaycan vokal məktəbinin banisi, görkəmli müğənni, pedaqoq, SSRİ Xalq artisti, Dövlət mükafatı laureatı Bülbülün (Murtuza Məşədi Rza oğlu Məmmədov; 1897-1961) anadan olmasının 125 illiyi tamam oldu.

Bu münasibətlə iyunun 21-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində sənətkarın yubileyinə həsr edilən tədbir keçirildi.

Muzeyin direktor müavini Təranə Qurbanova Bülbülün Azərbaycan mədəniyyəti tarixindəki müstəsna xidmətlərindən söz açdı: “Biz unudulmaz sənətkarın 125 illiyini böyük qürur hissi ilə keçiririk. Çünki onun doğulduğu Şuşa artıq azaddır. Buna görə Ali Baş Komandan, Prezident İlham Əliyevə, rəşadətli Ordumuza minnətdarıq və Vətən uğrunda canından keçmiş şəhidlərimizin ruhu qarşısında baş əyirik”.

Muzeyin şöbə müdiri Xanım Abdinova Azərbaycan vokal sənətinin zirvəsi olan Bülbülün həyatı və parlaq yaradıcılıq yolu, Azərbaycan musiqi mədəniyyətinin inkişafı və təbliği yolundakı xidmətlərindən danışdı. Diqqətə çatdırdı ki, XIX əsrdə Qafqazın konservatoriyası kimi tanınan Şuşa şəhəri, əzəmətli dağların qoynunda yerləşən bu füsunkar diyar musiqi mədəniyyətimizə dahilər bəxş edib: “Bülbülün ecazkar səsi ilk dəfə Şuşa şəhərində eşidilib. Bülbül kimi cəh-cəh vuran balaca Murtuzanı “Bülbül” deyə çağırıblar. Azərbaycan musiqi tarixində Bülbül kimi özünəməxsus ifa tərzi, yaradıcılıq yolu olan sənət ustaları çox azdır. O, vokal məktəbində bir əfsanədir...”.

Çıxışlardan sonra konsert proqramı təqdim edildi. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solistləri – Xalq artisti Gülyaz Məmmədova, Əməkdar artistlər Ramil Qasımov, İlahə Əfəndiyeva, Ələkbər Əliyev, Roza Səlimova və Ceyran İsayevanın ifalarında Üzeyir Hacıbəylinin “Koroğlu” operasından Koroğlu və Nigarın ariyaları, “Arşın mal alan” operettasından Vəli və Tellinin dueti, “Sevgili canan” romansı, Asəf Zeynallının “Ölkəm”, Niyazinin “Vətən nəğməsi” əsərləri səsləndirildi. Bütün ifalar alqışlarla qarşılandı.

Sonda Bülbülün ifaları olan videoyazı və muzeyin arxiv materialları əsasında hazırlanmış videoçarx nümayiş etdirildi.

**Savalan**

# Azərbaycan-İsveç diplomatik əlaqələrinin 30 illiyi münasibətilə

## Qara Qarayevin Ev-Muzeyində musiqi axşamı

Bu il Azərbaycan Respublikası ilə İsveç Krallığı arasında diplomatik münasibətlərin qurulmasının (8 may 1992-ci il) 30 illiyidir.

Bu münasibətlə iyunun 22-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin təşkilatçılığı ilə Qara Qarayevin Ev-Muzeyində iki ölkə bəstəkarlarının əsərlərindən ibarət konsert proqramı təqdim edildi.



Konsertdən öncə çıxış edən ev-muzeyin müdiri Züleyxa Bağırova-Qarayeva bildirdi ki, ölkələr arasında əlaqələr siyasi dialoq və diplomatiya üzərində qurulsa da, mədəni əməkdaşlıq hər zaman xüsusi yer tutur. Azərbaycan və İsveç arasında mədəniyyət sahəsində əlaqələr də ötən müddətdə inkişaf edib.

İsveç Krallığının ölkəmizdəki səfiri Kristian Kamil iki ölkə arasında diplomatik münasibətlərin yubileyinə həsr olunan konsertdə iştirakından məmnunluğunu ifadə etdi. Diplomat dedi ki, mədəniyyət sahəsində iki ölkənin əməkdaşlığının daha da inkişaf etdirməsi üçün böyük potensial var. Səfir konsertin ərsəyə gəlməsində əməyi olanlara təşəkkürünü bildirdi.

Çıxışlardan sonra konsert proqramı təqdim edildi. V.Mustafazadə adına 2 saylı Uşaq incəsənət məktəbinin şagirdi Ömər Həsənli, beynəlxalq və respublika müsabiqələri laureatları Nailə Xasıyeva, Cəmalə Abdinzadə, Mahir Tağızadə, Zəhra Cahan, Kamran Talıblı və Anar Seyidov, Adil Axundov, G.Şaroyev adına 35 saylı Uşaq musiqi məktəbinin şagirdləri Cəlalə İsmayılzadə, Anar Seyidov, Rüstəm Zeynalovun ifasında Qara Qarayevin “Ad günü marşı”, “Mən sizi sevirdim”, “Gürcüstan təpələrində” romansları, Məmməd İsrafilzadənin “Elegiya”, Vilhelm Stenhammerin “Vokal və fortepiano üçün 2 romans”, “Fortepiano üçün 3 kiçik pyes”, “Violin və fortepiano üçün sentimental romans”, “Violin və fortepiano üçün sonata” (II hissə), Tofiq Quliyevin “Qəmgin mahnı”, Rüzgar Əhmədzadənin “Fleyta və fortepiano üçün 3 pyes” və digər əsərlər səsləndirildi. Çıxışlar alqışlarla qarşılandı.

**S.Fərəcov**

# “Kommunikasiya meneceri” layihəsi üzrə treninqlər yekunlaşır



Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyinin “Kommunikasiya meneceri” layihəsi çərçivəsində 20-24 iyun tarixində ADA Universitetində təlimlər keçirilir.

İyununun 21-də təlim kursu “Ənənəvi və sosial media ilə işləmək bacarıqları” mövzusunda davam edib. Təlim ADA Universiteti İctimai və Beynəlxalq Münasibətlər Məktəbində Kommunikasiya və rəqəmsal media proqramının direktoru Şəfəq Mehrəliyeva tərəfindən aparılıb.

İyunun 22-də Şəfəq Mehrəliyevanın təqdimatında “Kommunikasiya planının qurulması” mövzusuna həsr olunan təlim praktiki tapşırıqların qrup işi formasında yerinə yetirilməsi, birgə müzakirələr, keys araşdırmaları və fikir mübadiləsi ilə aparılıb.

Həmin gün təlimə spiker kimi dəvət olunan “Trend” informasiya agentliyi mədəniyyət departamentinin rəhbəri Vüqar İmanov, Azərbaycan Televiziyası “Mədəniyyət” kanalının müxbiri, yazıçı-dramaturq Ülviyyə Heydərova və tanınmış televiziya aparıcısı, ictimaiyyətlə əlaqələr üzrə mütəxəssis Ceyhun Əli iştirakçılarla öz təcrübələrini bölüşüblər.

Ülviyyə Heydərova mədəniyyət sahəsinin işıqlandırılmasının məsuliyyətli tərəfləri, mədəni və mənəvi irsin təbliğində ictimaiyyətin maariflənməsinin vacibliyini vurğulayıb. Vüqar İmanov rəsmi tədbirlər zamanı kadrlarla işləmək, məlumatın düzgün ötürülməsi, media ilə əlaqə və ünsiyyətin operativliyi mövzusunda danışıb. Ceyhun Əli auditoriya qarşısında çıxış, dil və üslub, nitqin psixoloji tərəfləri barədə fikirlərini bölüşüb.

Spikerlər daha sonra iştirakçıların suallarını cavablandırıblar və təlim müzakirələrlə davam edib.

Günün sonunda iştirakçılara ana dilində ilk dərsliyimiz – görkəmli maarifçilər Aleksey Çernyayevski və Səfərəli bəy Vəlibəyovun “Vətən dili” kitabının (1882-1888) ADA Universitetinin layihəsi əsasında latın qrafikasında ərsəyə gələn nəşri (2022) hədiyyə edilib.

Qeyd edək ki, ADA Universitetində “Kommunikasiya meneceri” layihəsi üzrə təlimlər universitetin ixtisasartırma proqramlarının təlimat cədvəlinə uyğun olaraq gerçəkləşir.

Treninqlər iyunun 24-də başa çatacaq. İştirakçılara müvafiq sertifikatlar təqdim ediləcək.

**Lalə**

# Mədəniyyət Nazirliyində yubilyar bəstəkarla görüş

Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev iyunun 22-də görkəmli bəstəkar, Xalq artisti, Prezident təqaüdçüsü Faiq Sücəddinovla görüşüb.

Bəstəkarı 75 illik yubileyi münasibətilə təbrik edən Elnur Əliyev ona möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları arzulayıb.

Faiq Sücəddinov göstərilən diqqətə görə Mədəniyyət Nazirliyinə minnətdarlığını ifadə edib.

Qeyd edək ki, iyunun 14-də sevilən nəğmələr müəllifi, Xalq artisti, “Şöhrət” ordenli Faiq Sücəddinovun 75 yaşı tamam olub.

# Milli Kitabxananın direktoru CENL toplantısında çıxış edib

Xəbər verdiyimiz kimi, 20-21 iyun tarixlərində Ankarada Avropa Milli Kitabxanaları Konfransı – CENL-in 36-cı illik toplantısı keçirilib. Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov toplantıda çıxış edib.

Milli Kitabxanadan bildirilib ki, Kərim Tahirov çıxışında kitabxananın fəaliyyəti və son illərdə Mədəniyyət Nazirliyi ilə birgə, Heydər Əliyev Fondunun fəal dəstəyi ilə həyata keçirdiyi layihələrdən bəhs edib.

Direktor bu xüsusda son illər ərzində Heydər Əliyev Fondunun dəstəyi ilə reallaşdırılan “Milli-mənəvi dəyərlərimizin Vətənə qayıdışı” layihəsi çərçivəsində Nizami, Nəsimi, Xətai, Tusi kimi dahi şair və mütəfəkkirlərimizin irsi ilə bağlı müxtəlif ölkə kitabxanalarında mühafizə olunan əlyazmaların digital nüsxələrinin respublikaya gətirilməsindən söz açıb. Kərim Tahirov, eyni zamanda fürsətdən istifadə edərək ötən il Nizami Gəncəvinin qiymətli əlyazmalarının elektron nüsxələrini Azərbaycan Milli Kitabxanasına təqdim etdiklərinə görə Türkiyə, Almaniya, Böyük Britaniya, Çexiya, Albaniya, Avstriya, Macarıstan və digər Avropa ölkələrinin milli kitabxana direktorlarına təşəkkürünü bildirib.

Direktor çıxışı zamanı 2023-cü ilin payızında Bakıda Azərbaycan Milli Kitabxanasının 100 illik yubileyinin qeyd olunacağını bildirərək, bütün CENL üzvü olan milli kitabxana direktorlarını bu yubileyə dəvət edib. CENL-in prezidenti, Almaniya Milli Kitabxanasının baş direktoru Frank Şoltse (Scholze) professor Kərim Tahirova təşəkkürünü bildirərək dəvəti məmnuniyyətlə qəbul etdiklərini söyləyib.

# Regional idarələrdə çalışan dövlət qulluqçuları üçün təlimlər

ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAID) maliyyələşdirdiyi, “FHI 360” təşkilatı tərəfindən “MG Consulting” və Azərbaycan Açıq Hökumət Platforması ilə birgə icra olunan “Şəffaflıq naminə vətəndaş cəmiyyəti layihəsi” (ECSOFT) çərçivəsində Mədəniyyət Nazirliyinin regional idarələrində çalışan dövlət qulluqçuları üçün “Etik davranış qaydaları” və “Korrupsiyaya qarşı mübarizə” mövzularında təlimlər keçirilib.

İyunun 20-də videokonfrans formatında gerçəkləşən treninqdə təlimçi qismində Açıq Hökumət Platformasının koordinatoru Əliməmməd Nuriyev və “Prioritet” Sosial-İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyinin sədri Zaur İbrahimov çıxış ediblər.

Təlimə ümumilikdə 92 nəfər qatılıb. İştirakçılara etik davranış qaydaları, dövlət qulluğu etikası ilə bağlı prinsip və dəyərlərin məqsədi, etik davranış qaydalarının pozulmasına görə məsuliyyət, korrupsiya ilə əlaqədar hüquqpozmaların subyektləri, bu barədə müraciətlərə baxılması, korrupsiya risklərinin müəyyən edilməsi və s. məsələlər haqqında məlumatlar verilib.

# Akademik Musiqili Teatrda ilk: caz-tamaşa



Azərbaycan Dövlət Akademik Musiqili Teatrında rus dramaturqu Aleksandr Ostrovskinin “Cehizsiz qız” pyesi əsasında hazırlanan “Lara Martin's Jazz Club” caz-tamaşasının premyerası uğurla təqdim olunub. Fərqli üslubu və maraqlı səhnə tərtibatı ilə seçilən 4D formatlı tamaşa Azərbaycan teatr məkanında bir ilkdir.

Teatrın rus bölməsində ərsəyə gələn səhnə əsərinin quruluşçu rejissoru İradə Gözəlova, layihənin ideya müəllifi və bədii rəhbəri Əməkdar incəsənət xadimi Əliqismət Lalayevdir. Tamaşanın quruluşçu dirijoru Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev, musiqi tərtibatçıları Əməkdar artist, Prezident təqaüdçüsü Nərgiz Kərimova və adı Azərbaycanın gənc istedadlarının “Qızıl kitabı”na yazılan Nərminə İsmayılova, quruluşçu rəssamı Vüsal Rəhim, quruluşçu baletmeysteri Əməkdar artist Emin Əliyev, rejissor assistenti Tamilla Aslanovadır.

Caz-tamaşada baş rolu Əməkdar artist Nərgiz Kərimova ifa edib. Tamaşada həmçinin Əməkdar artistlər Fərid Əliyev, Nahidə Orucova, aktyorlar Əliməmməd Novruzov, Rauf Babayev, Emil Heydərov, pianoçu Nərminə İsmayılova və “DJ Maqa” – Məhəmməd Məmmədov çıxış ediblər.

Tamaşada aktyorların canlı ifalarında məşhur caz kompozisiyalarından nümunələr, eyni zamanda teatrın balet artistlərinin iştirakı ilə rəngarəng müasir rəqslər təqdim olunub.

Qeyd edək ki, xüsusilə caz həvəskarlarının marağına səbəb olan tamaşa 3 və 15 iyul tarixlərində də nümayiş olunacaq.

# Musiqi məktəbinin “Şuşa İli”nə həsr olunan xeyriyyə konserti

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Tofiq Quliyev adına 12 nömrəli onbirillik Musiqi məktəbinin “Şuşa İli” münasibətilə Beynəlxalq Muğam Mərkəzində xeyriyyə konserti keçirilib.




Konsert məktəbin kiçik xorunun ifasında sözləri Xalq şairi Vahid Əzizə, musiqisi şəhid pilotumuz Rəşad Atakişiyevin həyat yoldaşı, bəstəkar Könül Hüseynovaya aid olan “Şuşam mənim” mahnısı ilə başlayıb.

Yüksək vətənpərvərlik ruhunda keçən konsertdə Qarabağ müharibəsində canlarından keçən şəhidlərimiz yad edilib. Onların haqqında hazırlanmış videoçarxlar A.Zeynallının “Muğamsayağı”, Ə.Məmmədovun “Xudayar təsnifi” və başqa əsərlərin şagirdlər tərəfindən ifaları ilə müşayiət olunub. İkinci Qarabağ müharibəsində şəhid olmuş leytenant Nurlan Həsənovun qızı Nurgülün çıxışı xüsusi alqışa layiq görülüb.

Konsertdə bəstəkarlar – maestro Niyazi və Vasif Adıgözəlovun əsərlərinin səslənməsi səhnəyə Şuşanın musiqi ab-havasını gətirib. Şagirdlərin solo nömrələrlə yanaşı, maraqlı ansambl ifaları da yaddaqalan olub. Onlar T.Quliyev, A.Zeynallı və C.Cahangirovun əsərlərini də böyük şövqlə ifa ediblər.

Məktəbin məzunu, “O səs Ukrayna” müsabiqəsinin iştirakçısı, gənc müğənni Vaqif Nağıyevin ifasında M.Maqomayevin repertuarından məşhur mahnılar konsertə xüsusi canlanma gətirib. Musiqi axşamı dahi Ü.Hacıbəylinin “Cəngi”si ilə başa çatıb.

№47 (1920)
24 iyun 2022
www.medeniyyet.az

# Qarabağın tacı – mədəniyyət paytaxtımız

Regional mədəniyyət idarələrinin əhatə etdiyi müəssisələrdə "Şuşa İli" münasibətilə tədbirlər davam edir.



Bərdə RMİ-nin əhatə etdiyi Yevlax şəhər 2 nömrəli Musiqi məktəbinin təşkilatçılığı ilə Yevlax şəhər Yaradıcılıq evində "Şuşa İli"n mübarək olsun, Vətən!" adlı tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə "Şuşa İli"nə həsr olunmuş rəsm sərgisinə baxıblar. Sonra regional idarənin rəisi Vəsilə Möhsümova çıxış edərək bildirib ki, tədbirin məqsədi milli-mənəvi keçmişimizi özündə yaşadan, tarixi əhəmiyyəti ilə xalqımız üçün müstəsna dəyərə malik olan Qarabağın, o cümlədən Şuşanın zəngin mədəniyyətini, tarixini, təbiətini tanıtmaq, təbliğ etməkdir. Sonda məktəbin "Qarabağ inciləri", "Saz" və "İlkin" ansambllarının ifasında şuşalı bəstəkarların musiqiləri səsləndirilib.

***



Xaçmaz RMİ Qusar rayon Mədəniyyət Mərkəzi Yuxarı Qələnxur kənd klubunda "Qarabağın tacı – Şuşa" mövzusunda mədəni-kütləvi tədbir keçirilib. Tədbirdə RMİ-nin Qusar rayonu üzrə nümayəndəsi Elnur Eldarov, rayon Heydər Əliyev Mərkəzinin direktoru Neva Abdurahmanova, Mədəniyyət Mərkəzinin direktoru Reyhan Həsənova və başqa qonaqlar, ictimaiyyət nümayəndələri, məktəblilər iştirak ediblər. Çıxışlardan sonra rəngarəng konsert proqramı təqdim olunub.

***



Şəki Regional Mədəniyyət İdarəsi (RMİ) Balakən rayon MKS-nin Qaravəli kənd kitabxanası Şuşa şəhərinin 270 illik yubileyi münasibətilə Əli Şirinov adına kənd tam orta məktəbində "Şuşamız azadlıqda" başlığı altında dəyirmi masa keçirib. Şagirdlərə Şuşanın tarixi, mədəniyyəti və bu günü haqqında ətraflı məlumat verilib.

Şəki şəhər MKS-nin 49 nömrəli kitabxana filialında Baş Zəyzid kənd Sənətkarlıq evi ilə birlikdə "Şuşanın simaları" adlı dəyirmi masa təşkil olunub. Tədbirin sonunda iştirakçılar Şuşaya həsr olunmuş sərgiyə baxıblar.

# Qusar teatrının "Adət"i

Qusar Dövlət Ləzgi Dram Teatrı türk yazar Turqut Özakmanın "Adət" tamaşasını teatrsevərlərə təqdim edib.




Əməkdar artist, rejissor Xəzər Gəncəlinin quruluş verdiyi tamaşada iki ailə arasında baş verən qan davasının acı nəticələri və bu ədavətə son qoya biləcək sevgidən bəhs olunur.

İkipərdəli səhnə əsərinin rejissor assistenti Gülarə Quliyeva, rəssamı Marina Mahmudova, musiqi tərtibatçısı Şaiq Qardaşovdur.

Rolları Şükufə Mirzəağayeva, Lalə Qurbanova, Sədaqət Əlimuradova, Bağır Əhmədov, Rəhilə Hacıbəyova, Namik Mustafayev, Kəmalə Səfərova, Emma Xəyirbəyova, Diana Cəfərova, Elnur Hacıyev, Yeganə Kərimova ifa edirlər.

# Ordum da var, yurdum da...




*əvvəli səh. 1-də*

Ağcabədi RMİ-nin əhatə etdiyi Ağdam rayon Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən Qaradağlı kənd Mədəniyyət evində 5 saylı kitabxana, rayon Gənclər və İdman İdarəsi, YAP rayon təşkilatının iştirakı ilə "Yaşasın qalib Azərbaycan Ordusu!" adlı tədbir keçirilib. Tədbirdə çıxış edənlər əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən ordu quruculuğundan, 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun göstərdiyi rəşadətdən, qazanılan tarixi Zəfərdən danışıblar. Məktəblilər Vətənə və Ordumuza həsr olunan şeirlər söyləyib, əsgərlərimizə yazdıqları təbrik məktublarını oxuyublar.

***

İsmayıllı RMİ İsmayıllı rayon Heydər Əliyev adına Mədəniyyət Mərkəzində şəhid ailələri və qazilərlə görüş keçirilib. Görüşdə İsmayıllı Rayon İcra Hakimiyyətinin şöbə müdiri Sevil Əhmədova, RMİ-nin rəisi Elçin Nəcəfov iştirak ediblər. Tədbirdə "Şuşa, sən azadsan!" filmi nümayiş olunub.

***

Gəncə RMİ Goranboy rayon Mərkəzi Kitabxanasının Uşaq şöbəsi Heydər Əliyev adına mədəniyyət və istirahət parkında "Tarix yazan Ordum" adlı şeir saatı keçirib. Tədbiri açan Uşaq şöbəsinin müdiri Rəna Məhərrəmova Azərbaycan Silahlı Qüvvələr Gününün yaranma tarixindən, Ordumuzun 44 günlük Zəfər salnaməsindən bəhs edib. 2 saylı şəhər tam orta məktəbinin şagirdləri "Sən qürurumuzsan, əsgər!" şeirini səsləndiriblər.

***



Sabirabad RMİ Sabirabad rayon Heydər Əliyev Mərkəzində "Vətənpərvər olaq!" adlı tədbir keçirilib. Mərkəzin direktoru Rəna Hacızadə Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 104-cü ildönümü münasibətilə tədbir iştirakçılarını təbrik edib, Ordumuzun Zəfər yolundan danışıb.

***



Sumqayıt RMİ-nin Qubadlı rayon nümayəndəliyi tərəfindən Sumqayıt şəhər N.Nərimanov adına Mədəniyyət Mərkəzində Vətən müharibəsi şəhidi Orxan Rəhimlinin anım mərasimi keçirilib. Qubadlı Rayon İcra Hakimiyyəti başçısının müavinləri Allahverdi Haqverdiyev, Xoşqədəm Alıyeva, YAP Qubadlı rayon təşkilatının sədri Təhmasib Rüstəmov, ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirdə şəhidin keçdiyi şərəfli həyat yolu haqqında geniş məlumat verilib, Mədəniyyət Mərkəzinin hazırladığı musiqili-ədəbi kompozisiya maraqla qarşılanıb.

***

Biləsuvar RMİ Salyan Rayon Tarix-Diyarşünaslıq Muzeyi və rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Silahlı Qüvvələr Günü münasibətilə "Ordum varsa, yurdum var" adlı görüş keçirilib. Tədbirdə Vətən müharibəsi şəhidi, Xüsusi Təyinatlı Qüvvələrin kapitanı Kamil Şirinovun atası, keçmiş hərbçi Əliş Şirinov, Salyan rayon 8 saylı tam orta məktəbin hərbi rəhbəri, qazi Zamiq Əsgərov və hərbi çağırışa hazırlaşan gənclər iştirak ediblər.

# Yubiley, görüş, sərgi-plener...



Gəncə RMİ Goranboy Rayon Dövlət Rəsm Qalereyası və Mərkəzi Kitabxananın birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində istiqlal şairi Əhməd Cavadın (1892-1937) 130 illiyi ilə əlaqədar tədbir keçirilib. Qalereyanın direktoru Çinarə Abdullazadə, Heydər Əliyev Mərkəzinin və Mərkəzi Kitabxananın əməkdaşları çıxış edərək şairin həyat və yaradıcılığından danışıblar.

***

Bərdə RMİ-nin təşkilatçılığı ilə Bərdə rayon Heydər Əliyev adına parkbulvar kompleksində yaradıcı gənclərin yerli şairlər Nadir Qədimli, Nofəl Sadiq, Bəxtiyar Akifoğlu, Aqşin Hacızadə ilə görüşü keçirilib. Tədbirdə yaradıcı gənclərin hazırladıqları əl işləri, rəsm əsərləri nümayiş olunub, "Qarabağ" rəqs qrupu və gənc ifaçıların musiqi nömrələri maraqla qarşılanıb.

***

Şəki RMİ M.F.Axundzadə adına Şəki şəhər Mədəniyyət Mərkəzində Şəki şəhər 2 nömrəli Uşaq musiqi məktəbi Fortepiano şöbəsinin konserti keçirilib.

Oğuz Rayon Tarix-Diyarşünaslıq Muzeyi məktəblilərin yay tətilini maraqlı etmək məqsədilə ekskursiya layihəsi həyata keçirir. Layihə çərçivəsində ilk ziyarətçilər muzeydə olublar. Muzeyin bələdçisi tərəfindən uşaqlara və valideynlərə Oğuzun tarixi və muzeydə qorunan eksponatlar haqqında bilgi verilib.

Balakən rayon İtitala kənd Folklor evində "Tariximizdə iz qoyan abidələr" mövzusunda dəyirmi masa keçirilib.

***



Lənkəran RMİ Lənkəran şəhər Uşaq rəssamlıq məktəbi şagirdlərinin iştirakı ilə təbiət qoynunda sərgi-plener keçirilib. Şagirdlər günəş işığı və atmosferin təsiri ilə əmələ gələn əsrarəngiz rəng palitrasını tablolarında əks etdiriblər. Plenerin məqsədi uşaqların yaradıcılığını stimullaşdırmaq, əhatə olunduqları mədəni mühitə yanaşma tərzini təkmilləşdirmək, bədii zövqünü inkişaf etdirmək, Azərbaycan təbiətini tərənnüm etməkdir. Lənkəran RMİ-nin rəisi Şahin Şahbazov rəssamlara gələcək fəaliyyətində uğurlar arzulayıb.

***

Ağdaş RMİ-nin tabeliyində fəaliyyət göstərən Zərdab rayon Heydər Əliyev Mərkəzi və Həsən bəy Zərdabi Muzeyinin birgə təşkilatçılığı ilə



"Azərbaycan maarifinin yorulmaz carçısı" mövzusunda tədbir keçirilib. Muzeyin direktoru Vəfa Bayramova, Heydər Əliyev Mərkəzinin direktoru Könül Rəhimova görkəmli təbiətşünas alim və maarifçi H.Zərdabinin (1837-1907) həyat və fəaliyyəti haqqında söz açıblar. Zərdabinin nəşr etdirdiyi "Əkinçi" qəzeti ilə milli mətbuatın əsasının qoyulduğu vurğulanıb. Mərkəzin əməkdaşı Xanım İmanova "Azərbaycan maarifinin yorulmaz carçısı", Həsən bəy Zərdabi Muzeyinin fond mühafizi Leyla Əliyeva "Tarixlər yazan dahi" mövzularında məruzə ediblər.

***

Ağdaş RMİ Habil Əliyev adına 1 nömrəli Ağdaş şəhər Musiqi məktəbində ömrünün böyük bir hissəsini bu təhsil ocağına və onun idarəçiliyinə sərf edən Tənzilə Şıxıyevanın 80 illik yubileyi münasibətilə tədbir keçirilib. Ağdaş Rayon İcra Hakimiyyəti və Ağdaş RMİ-nin təşkilatçılığı ilə keçirilən tədbirdə yubilyarın ömür yoluna və fəaliyyətinə nəzər salınıb. Sonda çıxış edən Tənzilə Şıxıyeva göstərilən diqqət və qayğıya görə tədbirin təşkilatçılarına minnətdarlığını bildirib.

# "Xalçaçılıq Azərbaycan xalqının sənət pasportudur"

## "İstərdim ki, miniatür xalçaçılıqda da öz ölkəmi təbliğ edə bilim"

Xəbər verdiyimiz kimi, bu günlərdə Lənkəranda şəhərin mədəni inkişaf strategiyasının təqdimatı keçirildi. Tədbir çərçivəsində cənub bölgəsi sənətkarlarının əl işlərindən ibarət sərgi də təşkil olunmuşdu. Sənətkarların oyma, təkəlduz, qurama və digər sahələr üzrə yaratdıqları əsrarəngiz məmulatlar böyük marağa səbəb oldu.



Sərgidəki nümunələr sırasında qədim xalçaçılıq sənətimizi təbliğ edən miniatür xalçalar xüsusilə diqqət çəkirdi. Müxtəlif dövlətlərin bayraqları əks olunan tematik xalçaların müəllifi ilə tanış oluram. Lerik rayon sakini İlqamət Hadiyev. İxtisasca iqtisadçıdır və Lənkəran Regional Xəzinədarlıq İdarəsində işləyir. Deyir ki, bu işə hobbi olaraq başlayıb. Xalça toxumaq isə ona anasından keçib.

*– Miniatür xalçaya marağınız necə yarandı?*

– 2010-cu ildən bu işi biznes ideyası kimi fikirləşmişdim və uğurlu alındı. Miniatür xalçalar toxumağa başladım və əl işlərimi turistlərə təqdim edirdim. Toxuduğum miniatür bayraq xalçaları arasında Azərbaycan bayrağı üstünlük təşkil edir. İlk toxuduğum miniatür xalçada isə ümummilli lider Heydər Əliyevin imzasının təsviri olunub. Ondan sonra gerbimizi və bayrağımızı miniatür xalça formasında toxudum.

*– İqtisadçı-xalçaçı. Niyə məhz bu sahəni seçdiniz?*

– Ailəmiz çoxuşaqlı olduğundan anama dəzgahları evə gətirib xalçanı evdə toxumağa icazə verirdilər. İlk dəfə xalça ilə 4-cü sinifdə oxuduğum zaman tanışlığım olub. O vaxtdan da elə bu sənəti sevmişəm. Yəni hobbim də, biznes marağım da buradan yaranmışdı. Doğulduğum Lerikin Mondigah kəndində subay qızlar öz cehizlik xalçalarını özləri toxuyardılar.

*– Ən kiçik və sizin üçün özəl xalça hansıdır?*

– "Zaman karvanı" xalçasının eni 7,6 sm, uzunluğu 10,9 sm-dir. Hər çində 109 ilmə var. Bu xalçada cəmi 217 çin var. Ümumilikdə isə 23 min 653 ilmə var. Bir kvadrat santimetrə 285,5 ilmə düşüb. Bu da əl ilə toxunan xalçalar üçün rekord göstəricidir. "Zaman karvanı"nda 4 dəvə əks olunub. İlin fəsillərinə uyğun olaraq dəvələrin rəngi dəyişir. Digər toxuduğum "Qarabağ" xalçasını isə Lətif Kərimovun eskizi əsasında işləmişəm. Həmin xalçada eskizə xələl gətirməmək şərti ilə bəzi dəyişiklik etdim. Eni 6,6 sm, uzunluğu 10,7 sm-dir. 22 min 127 ilmə vurmuşam. Bir kvadrat santimetrə 313 ilmə düşüb. Burada rekordu yeniləmişəm. Gördüyüm işlərin içərisində ən mükəmməli "Zəfər" xalçasıdır. "Zəfər" xalçasında 44 xarıbülbül əks olunub. Qələbəmizə həsr olunan xalçanın eni 6 sm, uzunluğu 9,3 santimetdir. Bir sırada 105 ilmə, 162 çin və ümumilikdə 17 min 10 ilmə. Bir kvadrat santimetrə 305 ilmə düşüb. Ən kiçik xalçam isə "Qobustan"dır. Eni 1,9 sm, uzunluğu 2,5 sm. Burada 1302 ilmə var.

*– Bu xalçaları ilk olaraq biznes məqsədilə ərsəyə gətirdiniz, bəs bu gün məqsədiniz nədir?*

– Ermənilərin miniatür xalça toxuyaraq "Ginnesin rekordlar kitabı"na düşmək iddialarını sosial şəbəkədə gördüm. Bu məni çox narahat edir. Əslində, onların toxuduqlarına xalça demək olmaz. Xalçaçılıq Azərbaycan xalqının sənət pasportudur. Xalçaçılıq ənənəsi olan xalqın nümayəndəsi kimi istərdim ki, miniatür xalçaçılıqda da öz ölkəmi təbliğ edə bilim. Amma onu qeyd edim ki, bu günə kimi hələ Azərbaycan Milli Xalça Muzeyinə heç bir işimi təqdim etməmişəm.

*– Ən çox hansı mövzulara müraciət edirsiniz?*

– Rayonumuz turistik bölgədədir. Hazırda gördüyünüz sərgidə müxtəlif dövlətlərin bayraqları yer alır. Tematik xalçalara da maraq var. Tarixi və bədii mövzular diqqətimi çəkir.

*– Bir miniatür xalçanı toxumağa nə qədər vaxt sərf edirsiniz?*

- Çox vaxt aparır. Nəzərə alaq ki, bu mənim peşəm deyil, hobbimdir. İşdən sonra yorğunluğumu bununla atıram. Hər gün 2-3 saat vaxt sərf edirəm. Toxuduğum xırda milli ornamentli xalçaya isə 3 ay vaxt sərf eləmişəm. Bir çində 109 ilmə var. Gün ərzində müntəzəm işləsəm, yenə 10 çindən artıq ilmə vura bilmirəm, gözlərim yorulur.

*– Sərgiləriniz olubmu?*

– 2017-ci ildə Lerik Dövlət Rəsm Qalereyasında sərgim təşkil edilib. Lerik Rayon İcra Hakimiyyəti başçısının təşəbbüsü ilə rayonumuzun ərazisində yerləşən istirahət mərkəzlərinin birində də fərdi sərgim keçirildi. 2021-ci ildə Lənkəran Regional Mədəniyyət İdarəsi Lənkəran Mədəniyyət Mərkəzində və bu il "Lənkəran Sprint Hotel"də fərdi sərgilərim olub.

*– Miniatür xalça sənətinə gənc nəsildə maraq necədir?*

– Bu günə kimi müraciət edən olmayıb. Amma bir neçə il əvvəl Lerik Rayon Dövlət Rəsm Qalereyasında bu işi öyrənmək istəyən və maraqlanan gənclər üçün ustad dərsləri təşkil etmək istəyirdilər. Amma hələlik real bir addım yoxdur.

**Lalə Azəri**

# Ağdamda 16, Füzulidə 11 faiz...

## Azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinə ən böyük manea minalardır

Keçmiş təmas xətti 200 km uzunluğunda və 5 km enində ərazini əhatə edib. Bu ərazi həm piyada əleyhinə, həm tank əleyhinə minalarla, həm də partlamamış sursatlarla həddindən artıq çirklənmiş vəziyyətdədir. Ərazi relyefi, çoxlu vallar və hərbi istehkam yerləri minatəmizləyən maşınlardan istifadəni çox çətinləşdirir. Bizim minatəmizləyənlər, həqiqətən, çox böyük fədakarlıq göstərirlər.



Bu sözləri APA-ya müsahibəsində Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov deyib.

Prezidentin xüsusi nümayəndəsi qeyd edib ki, mövcud çətinliklərə rəğmən infrastruktur layihələri və digər işlər davam edir. O cümlədən işğaldan azad olunmuş, demək olar ki, bütün rayonlarda "Azərenerji" və "Azərişıq" tərəfindən yarımstansiyalar quraşdırılıb.

Emin Hüseynov bildirib ki, beynəlxalq ictimaiyyətin təzyiqi altında Ermənistan bizə bəzi rayonların mina xəritələrini verib. Amma bu xəritələrin praktiki əhəmiyyəti çox aşağıdır, dəqiqliyi 25% ətrafındadır. Xəritələrin ümumi əhatə dairəsi işğaldan azad olunmuş ərazilərin cəmi 5%-ni əhatə edir: "Çox təəssüflər olsun ki, mövcud reallıq budur və bu reallıqda fəaliyyət göstəririk. Ən çox minatəmizləmə işi görülmüş ərazi Ağdam rayonudur. Bu ərazinin 16%-i minalardan təmizlənib. Füzuli rayonu üzrə bu göstərici 10-11% ətrafındadır. Digər rayonlarda bu rəqəm daha aşağıdır. Bu, onu göstərir ki, hələ bu istiqamətdə görüləsi işlər çoxdur...".

Bu arada Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad olunmuş ərazilərdə minatəmizləmə əməliyyatı vaxtı havadan tədqiqat üçün Britaniyanın "Arpies NRC" şirkəti ilə müqavilə imzalayıb. ANAMA sədri Vüqar Süleymanov bildirib ki, tədqiqatçılar hazırda dronlarla və müxtəlif cihazlarla əraziləri tədqiq edir. Tədqiqatların nəticəsi süni intellekt vasitəsilə emal olunur.

Sədr blidirib ki, 18 ədəd minatəmizləyən maşın alınıb və azad olunmuş ərazilərdə təmizləmə işlərinə cəlb edilib.

# "Cənnətim Qarabağ" deyən qiraətçilər seçildilər

Aktyorların fərqli istiqamətlərdə öz potensiallarını üzə çıxarmaları və başqa aspektdən də realizə etmələri üçün festival və müsabiqələr, sözsüz ki, böyük önəm kəsb edir. Bu, digər tərəfdən də yaradıcı insanlar arasında əlaqələri möhkəmləndirməyə, xüsusən fərqli truppalardakı aktyorların fərd olaraq özlərini teatr cameəsində ifadəsi üçün fürsətdir. Təbii ki, bunu doğru istifadə edib, yaxşı iş ortaya qoyduqda...





İyunun 20-də belə maraqlı müsabiqələrdən birinə yekun vuruldu. Mədəniyyət Nazirliyi və Azərbaycan Teatr Xadimləri İttifaqının (ATXİ) təşkilatçılığı ilə keçirilən "Cənnətim Qarabağ" adlı bədii qiraət müsabiqəsi iştirakçıları və qalibləri yenidən tamaşaçı önünə çıxaraq həm çıxış etdilər, həm də mükafatlarını aldılar.

Azərbaycan bədii fikrinin görkəmli siması Xurşidbanu Natəvanın 190 illiyi, eləcə də "Şuşa İli"nə həsr olunan müsabiqə bölgə və paytaxt teatrlarının təmsilçiləri olmaqla 30-a yaxın aktyoru, eləcə də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) qiraətə həvəskar tələbələrini bir araya gətirmişdi.

Şairənin fərqli mövzulu qəzəllərini özünəməxsus ifa manerələri ilə təqdim etməyə çalışan iştirakçıları Azərbaycan teatr sahəsinin tanınmış mütəxəssisləri – rejissor, aktyor, qiraətçi, pedaqoq və teatrşünaslardan ibarət münsiflər heyəti qiymətləndirdi.

Əvvəlcə ATXİ sədrinin müavini, Xalq artisti Hacı İsmayılov çıxış edərək Xurşidbanu Natəvanın yaradıcılığından və onun Azərbaycan ədəbiyyatında rolundan, eləcə də şairənin doğma yurdu Şuşanın azad edilməsi və şanlı Zəfərimizdən söz açdı. Müsabiqənin ideyası və məramına da nəzər salan sədr müavini ittifaq olaraq bu qəbildən olan müsabiqə və festivalları daim diqqət mərkəzində saxladıqlarını dedi: "Uzun illərdən sonra bizim Şuşa həsrətimiz sona yetdi və biz yaradıcı insanlar olaraq ona sevgimizi, bağlılığımızı hər vəchlə nümayiş can atırıq. Bu həm də bizim vətəndaşlıq borcumuz, Vətənimizə, doğma Şuşamıza sevgi etirafımızdır".

H.İsmayılov diqqətə çatdırdı ki, qiraət müsabiqəsinə 11 teatr və 1 təhsil ocağından ümumilikdə 27 nəfərin təqdim etdiyi nümunələr (qiraət edilən şeirlərin videoyazısı) münsiflər heyəti tərəfindən dəyərləndirilib və 12-si seçilib. Tamaşaçılar seçilən nümunələri bu dəfə canlı olaraq izlədilər.

Akademik Milli Dram, Dövlət Gənc Tamaşaçılar, Bakı Bələdiyyə, Şuşa Dövlət Musiqili Dram, eləcə də Lənkəran, Gəncə, Qusar teatrlarının təmsilçiləri Natəvanın qəzəllərini qiraət etdilər.

Çıxışçılar sırasında ADMİU, eləcə də Sumqayıt teatrı təmsilçilərinin təqdimatı daha yaddaqalan oldu. Xüsusən sumqayıtlı təmsilçilərin sufi dəsgahı ilə fərqli bir ovqat yaradan təqdimatları alqışlarla qarşılandı.

Mükafatlandırma mərasimində çıxış edən ATXİ-nin sədri, Xalq artisti Azər Paşa Nemətov, Əməkdar incəsənət xadimi, rejissor Bəhram Osmanov, ADMİU-nun dosenti, bədii qiraətçi, Əməkdar artist Azad Şükürov belə tədbirlərin əhəmiyyətindən, teatr təmsilçiləri üçün əlavə stimul olduğundan bəhs etdilər. Bildirdilər ki, mütaliə vərdişi, bədii qiraət, aktyorun oyun imkanları ilə yanaşı natiqlik, poetik mətn üzərində iş imkanlarını genişləndirməyə xidmət edən müsabiqələr daim maraqlı nəticələrlə yadda qalır.

Məlumat üçün bildirək ki, müsabiqə iştirakçılarının Natəvanın yaradıcılığından qiraət etdikləri nümunələrin videoyazıları mayın 16-dək ATXİ-də qəbul olunub. İştirakçılar üçün yaş məhdudiyyəti qoyulmayıb. Münsiflər heyətinin 27 nəfər arasından seçdiyi 12 iştirakçıdan 3-ü yekunda qalib oldu: I yer – Bahar Həmzəyeva (Şuşa Dövlət Musiqili Dram Teatrının aktrisası); II yer – Elvin Nuri (Şəki Dövlət Dram Teatrı); III yer – Tural Əhməd (Bakı Bələdiyyə Teatrı).

Qaliblərə mükafatlar, digər 9 iştirakçıya münsiflər heyətinin xüsusi diplomları təqdim olundu.

Mərasim Azərbaycan Milli Konservatoriyası muğam üçlüyünün maraqlı ifaları ilə də yadda qaldı.

**Həmidə**

## Azərbaycan Dövlət Uşaq Filarmoniyasının Gəncədə konserti

Azərbaycan Dövlət Uşaq Filarmoniyası iyunun 21-də F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasında "Şuşa, biz gəldik!" adlı konsert proqramını təqdim edib.

"Şuşa İli"nə həsr olunmuş konsert Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Gəncə Şəhər İcra Hakimiyyəti, Gəncə Regional Mədəniyyət İdarəsi (RMİ) və Gəncə Dövlət Filarmoniyasının dəstəyi ilə reallaşıb.

Tədbirdə Qarabağ müharibəsi iştirakçılarının, şəhid ailələrinin övladları, Gəncə "SOS uşaq kəndi" və Gəncə Uşaq evinin sakinləri də iştirak ediblər.

Öncə Gəncə RMİ-nin rəisi Vasif Cənnətov və Mədəniyyət Nazirliyi Musiqi sektorunun müdiri Vüqar Hümbətov çıxış ediblər.

Sonra Azərbaycan Dövlət Uşaq Filarmoniyasının hazırladığı konsert proqramı təqdim olunub. Proqramda Azərbaycan və dünya bəstəkarlarının musiqiləri, müxtəlif rəqslər ifa olunub.

Konsertin sonunda Vasif Cənnətov Azərbaycan Dövlət Uşaq Filarmoniyasının direktoru Dilarə Əliyevaya Gəncə RMİ-nin təşəkkürnaməsini təqdim edib.



# Biz teatrı niyə sevmirik?

Teatr həmişə cəmiyyətin güzgüsü olub və biz həmişə bu güzgüdə özümüzü görmüşük. Bəs niyə bu güzgüdə biz artıq özümüzü görmürük? Buna səbəb nədir?

Məsələ ondadır ki, teatr yarandığı gündən insanların qarşısına çıxan problemlərin həlli yollarını göstərib. İstər klassika, istər müasir dramaturgiyanın səhnə həlli birmənalı şəkildə müasir insan problemlərinin həllinə yardımçı olmalıdır. Deməli, tamaşa elə qurulmalıdır ki, günümüzlə səsləşsin.

Belə olan təqdirdə teatrlarımıza nəzər salaq, görək teatrlarda günümüzlə səsləşən tamaşalar var, ya yox?! Əlbəttə, yoxdur.

Söhbətimizi əyaniləşdirək. Respublikamızda 27 dövlət teatrı fəaliyyət göstərir. Bu teatrların tamaşaları haqqında kifayət qədər məlumatlıyıq. Bu məlumatlara əsaslanaraq deyə bilərik ki, biz aziz və doğma teatrımızı heç də kifayət qədər sevmirik. O zaman belə bir sual yaranır. Bəs biz doğma teatrı niyə sevmirik? Gəlin, faktlara nəzər salaq və bunun səbəblərini araşdıraq.

Bu polemikaya teatrşünaslar, dramaturqlar, rejissorlar, aktyorlar və sair peşə sahibləri qoşula bilər. Və mənə elə gəlir ki, bu, işin xeyrinə olar.

Teatrın strukturundan başlayaq. Müasir dövrümüzdə teatrın strukturu düzgün qurulub, ya yox? Fikirlər müxtəlif ola bilər. Mənə qalarsa, deməliyəm ki, teatrın strukturu düzgün qurulmayıb. Mən bunu çoxsaylı müsahibələrimdə və çıxışlarımda dəfələrlə qeyd etmişəm. Fikirlərimi açıqlayım. Bütün müasir dünyada, hətta keçmiş sovetlər dönəmində fəaliyyət göstərən teatrlarda rejissor əsas sima sayılıb, teatrın düşünən beyni hesab olunub. Bu belədir. Teatrın direktoru baş rejissorun yaradıcılıq fəaliyyətinə imkan və şərait yaradan məmurdur. Onun işi baş rejissorun yaradıcılıq işinə təkan verməkdir.

Mən bu yaxınlarda hörmətli nazirimiz Anar Kərimovla da söhbətimdə bunu qeyd etmişəm. Onunla bir saata yaxın söhbətimiz oldu. Anar müəllim maraqlı həmsöhbət, təşkilati işləri gözəl bilən insandır. O, məndən təcrübəli bir şəxs kimi müasir teatr və kino prosesləri, teatr strukturu barədə fikirlərimi soruşdu. Bu xüsusda fikirlərimi də diqqətlə dinlədi. Bir daha qeyd edirəm: direktor teatrda baş rejissora yaradıcılıq imkanlarına yardımçı olan məmurdur. Bunları bir-biri ilə qarışdırmaq olmaz.

Bu, birinci məsələdir. İkinci məsələ Azərbaycan teatrında kadr məsələsidir. Söhbət peşəkar kadrlardan gedir. Biz yaxşı bilirik ki, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti milli teatr, kino və digər sahələr üçün peşəkar kadrlar hazırlayan ali təhsil ocağıdır. Mədəniyyət və incəsənət müəssisələrində, o cümlədən teatrlarda kadrların 99 faizini bu təhsil ocağı təmin edir. Bəlkə ali təhsil ocağı peşəkar kadr yetişdirmir? Əlbəttə, yetişdirir. Bəs bu kadrların əksəri niyə teatrlara yol tapa bilmirlər? Teatrı sevən baş rejissor və direktor olmalıdır ki, gənc və istedadlı kadrları işlə təmin etsin. Etiraf etməliyik ki, teatrlarda baş rejissorun elə bir səlahiyyəti yoxdur. Teatrlara kadrların işə qəbulu məsələsini direktor həll edir. Çünki mühür onun əlində, səlahiyyət ondadır. O isə kimi istəyir, onu da işə qəbul edir. Teatrlara istedadsız, zəif kadrlar gəlir. Sual oluna bilər, bəs bu adamlar teatra necə düşür? Çox sadə. Tanışları, əmiləri, dayıları, xalaları vasitəsilə... Bu səbəbdən teatrlar bugünkü duruma düşüb.

Məhz bu səbəbdən teatrlarda müxtəlif səs çalarlarına, nitq mədəniyyətinə malik aktyor tapmaq müşkülə dönüb. Aktyorun səs çaları və nitq mədəniyyəti nədir? Keçmiş aktyorları yada salaq: Ağasadıq Gəraybəyli, Möhsün Sənani, Hökümə Qurbanova, Əliağa Ağayev, Leyla Bədirbəyli, Ağahüseyn Cavadov, İsmayıl Osmanlı və digərləri. Allah onlara rəhmət eləsin. Onların hər birinin özlərinə məxsus səs çalarları və nitq mədəniyyəti xatirimizdə canlanır. Onları bir-biri ilə qarışdırmaq mümkün deyildi. Elə bu səbəbdən biz onları bu günə qədər unuda bilmirik. Sonrakı nəsli xatırlayaq: Səməndər Rzayev, Kamal Xudaverdiyev, Fuad Poladov, Yaşar Nuri, Əliabbas Qədirov, Mikayıl Mirzə, Şəfiqə Məmmədova, Amaliya Pənahova və digərləri. Bu sənətkarların da səs çalarları müxtəlifliyi ilə seçilirdi. Onları da qarışdırmaq mümkün deyildi. Səs çalarlarının müxtəlifliyi və rəngarəngliyi insanı valeh edirdi. Bunu heç kim dana bilməz.

Bu gün isə istənilən teatrın tamaşasında səhnədə 20 nəfər olsa da, elə bil bir səs var. Sual oluna bilər. Niyə rəngarənglik yoxdur? Bəs ali təhsil ocağı niyə rəngarəng səs çalarına malik kadr yetişdirmir. Yenə sual və eyni cavab. Əlbəttə, yetişdirir. Amma həmin istedadlar teatra yol tapa bilmir. Ona görə də teatrlarda aktyorların nitq mədəniyyəti bu səviyyədədir.

Nitq mədəniyyəti, səs çalarının müxtəlifliyindən danışırıqsa, aktyorun xarici görünüş məsələsindən də danışmalıyıq. Bu da yaralı mövzudur. Bayaq adları çəkilən sənətkarların hər biri səs çalarlarının şirinliyi və cazibəsi ilə bərabər, həm də vizual baxımdan səhnə görkəminə malik aktyorlar olublar. Onların boy-buxunu, üz cizgiləri, səs imkanları və söz yox ki, istedadları və plastikası bir-birini tamamlayıb, vəhdət təşkil edirdi. Rejissorlar da onlara obraz həvalə edəndə heç bir çətinlik çəkmirdilər. Gəlin, indi teatrlarımızdakı aktyorlarımızı yada salaq. Teatrlarda sanki bilərəkdən daha çox istedadsız və xarici görünüş etibarilə səhnəyə münasib olmayan insanları işə götürürlər. Niyə? Çünki təmənna və tanışlıq istedadlı insanların teatra yoluna çəpər çəkir.

Hamımız yaxşı bilirik ki, teatrların repertuarı onların simasıdır. Bu gün belə bir dəb yaranıb. Teatrlar yeni-yeni layihələr meydana çıxarırlar. Teatrın işi yeni tamaşa hazırlamaqdır. Rəhbər işləyən biri deyir ki, bu, mənim layihəmdir. Bu anlaşılmazlıqdır. Bu tamaşadırsa, bunun rejissoru, bəstəkarı, rəssamı və sair olmalıdır. Hər şeyi ümumiləşdirib, bir nəfərin adına çıxmaq olmaz. Adını da islahat qoyuruq. Amma biz islahat etmirik. İslahat adı altında olanları dağıdırıq, məhv edirik.

Mən illərin təcrübəsindən çıxış edərək belə düşünürəm. Bəlkə kimsə deyə bilər ki, dediklərim bir qədər kəskin oldu. Amma kəskin olsa yaxşıdır. Həqiqəti heç kim demir və ya demək istəmir. Hər yerdə tərifdir. Hamı həyatda "yaxşı adam" rolunu oynamaq istəyir.



Yaxşı yadımdadır. Rəhmətlik Hacıbaba Bağırov Musiqili Komediya Teatrına rəhbərlik edəndə mənim təqdimatımla 12, ya 15 istedadlı tələbəmi işə qəbul etmişdi. Bu gün həmin aktyorlar teatrda aparıcı obrazlar ifa edirlər. İndi bu mümkün deyil. Mən bu yaxınlarda iki istedadlı tələbəmin teatra qəbul edilməsi ilə bağlı Musiqili Teatrın baş rejissoru Cavid İmamverdiyevə müraciət etmişdim. O da həmin iki nəfəri qəbul etdi, səslərini dinlədi. Hər ikisi Mədəniyyət və İncəsənət Universitetinin musiqili teatr aktyoru kursunu bitiriblər. Hər iki gənc boy-buxunlu, səs çalarları və istedadları ilə teatr üçün tapıntı idi. Baş rejissor C.İmanquliyev teatrın direktoruna gənc kadrların işə qəbulu ilə bağlı müraciət edəndə, o, deyib ki, ştatda yer yoxdur. Beləliklə, gənc kadrlar teatrdan uzaq düşüblər. Axı istedadlı insanları teatrdan uzaqlaşdırmaq olmaz.

İndi isə daha bir vacib məsələ haqqında fikirlərimi bildirmək istəyirəm. Teatrın repertuarı vacib məsələdir.

Unutmamalıyıq ki, dünya qloballaşır. Biz istəsək də, istəməsək də müasirləşməliyik. Məsələn, mən düşünürəm ki, niyə teatrlar birləşib, müştərək bir tamaşa hazırlamasın? Milli futbol yığmamız üçün müxtəlif komandalardan oyunçular toplanmır? Teatrda da bu təcrübədən istifadə etmək olar. Şəhər və bölgə teatrlarından toplanmış aktyor heyətindən maraqlı bir tamaşa meydana qoymaq olar. Söhbət milli teatrın gələcək inkişafından gedirsə, niyə də yox? Niyə bir aktyor, uyğun olub-olmadığına baxmayaraq, eyni teatrda illərlə qalmalıdır, fəxri ad və sair gözləyə-gözləyə. Bəlkə o, digər teatrda istedadını daha çox büruzə verə bilər. Bəlkə tam yeni bir müqavilə sisteminə keçək. Bütün hallarda teatrların strukturunda köklü dəyişikliklər aparılmalıdır. Dövrə uyğunlaşmaq lazımdır. Zaman dəyişib. Hamı zamanın dəyişməyini bilə-bilə, nəyisə gözləyir. Sabah fəxri ad alaram, sabah mükafat alaram. Sabah sabah olacaq. Sabah yoxdur. Sabah qurtarıb. Sabahı bu gündən başlamaq lazımdır. Gözləmək olmaz.

Tamaşaçı yüksək peşəkar səviyyəli tamaşa gözləyir. Onun üçün aktyorun hansı teatrdan olmağının heç bir əhəmiyyəti yoxdur. Aktyor Gənc Tamaşaçılar Teatrından da ola bilər, Akademik Milli Dram Teatrından da, Naxçıvan, Gəncə, Şəki və ya Lənkəran teatrından da... Yeganə bir məqsəd var. Tamaşaçını mükəmməl səhnə nümunəsi ilə heyrətləndirmək. Bax, layihə budur. İstedadlıları bir araya gətirmək lazımdır.

Rəhmətlik Tofiq Kazımov yeni teatr yaratmaq uğrunda mübarizə aparıb, gənclərə önəm verirdi. Amma bir şərtlə ki, gənclər istedadlı olsun. Tofiq Kazımovun bir sözü vardı. Deyirdi ki, hər yeni tamaşada teatra iki yeni qan vurulmalıdır. Həmin yeni tamaşada bir yeni qız, bir yeni oğlan olmalıdır. Bu, yenilənmə deməkdir. Bu gün teatrlarda istedadsızlar çoxalıb. Onlar istedadlılara imkan vermirlər. Onların istəkləri də artıb. Çünki arxaları var. Amma unutmaq olmaz ki, teatra olan münasibət əvvəlki deyil. İnsanlar artıq yalana inanmırlar. Yalan bir dəfə olar. Teatr isə həqiqəti deyən və nümayiş etdirən sənət meydanıdır, güzgüdür. Güzgü həqiqəti göstərməlidir. Yalan və naqislik olanda, tamaşaçı inanmır.

Bəzi rejissorlar tamaşalarda elə mizan verirlər ki, "adamın dəymişi qala-qala kalı tökülür". Bu mizanları mizandan başqa nəyə desən oxşatmaq olar. Mizan adına aktyor sağdan sola, soldan sağa gedir. Niyə getdiyinin səbəbini isə bilmir.

Və ya səhnədə aktyor elə çığırır, elə bağırır ki, sanki tamaşadan sonra tamaşaçı döyüşə gedəcək. Bu, teatr deyil, bu, islahat deyil. Əgər islahat budursa, demək biz teatrı dağıdırıq. Teatr dövrün novator fikirlərini tamaşaçılara çatdırmalıdır. Teatr zamanı qabaqlamağı, tamaşaçını arxasınca aparmağı qarşısına məqsəd qoymalıdır. Biz teatrla bağlı çatışan və çatışmayan cəhətlərimizi deməliyik. Bir-birimizi nə qədər aldatmaq olar. Nə qədər deyək ki, hər şey yaxşıdır. Hər şey yaxşı deyil axı.

Hər teatrın öz spesifikası, öz siması və öz repertuarı olmalıdır. Məsələn, bir əsər eyni vaxtda ayrı-ayrı teatrlarda repertuardadır. Bəs teatrların ədəbi hissə müdirləri hara baxırlar? Onlara işləməyə imkan verirlərmi? Əlbəttə, yox. Bu da bir problemdir.

Belə məlum olur ki, teatrların strukturu dağıdılıb. Elə bil tərsinə çevrilib. Elə bil qəsdən belə ediblər. Bütün bunları özümə görə yox, gələcək nəsillər üçün deyirəm. Yeni ideyaları qorumaq lazımdır. Amma bəzən yeni ideyanı bilərəkdən məhv edirlər.

Mən vaxtilə "İlham" miniatür teatrı yaratmışdım. Bir neçə teatrdan istedadlı gəncləri bir araya toplamışdım. Gənc Tamaşaçılar Teatrında bizə yer vermişdilər. Bir neçə teatrı bu teatra birləşdirəndən sonra bizim üçün problem yarandı. Teatra topladığım insanlar dağılışdılar. Beləliklə, teatrın normal fəaliyyətinə bilərəkdən manee törətdilər.

Teatrla bağlı problemlərdən danışırıqsa, bədii şura haqqında da danışmalıyıq. Bu, çox ciddi məsələdir. Tam cəsarətlə deyə bilərəm ki, heç bir teatrda bədii şura yoxdur. Bədii şura yerinə bütün məsələləri bir nəfər həll edir. Heç bir kollegiallıqdan söhbət belə gedə bilməz. Əslində isə, bədii şurada müxtəlif peşəkar insanlar olmalıdır ki, teatrın normal repertuarı haqqında fikir yürüdə bilsinlər. Teatrın bədii şurasında dramaturqlar, bəstəkarlar, rejissorlar, rəssamlar və aktyorlar olmalıdır.

Bu məqamda haşiyə çıxıb, daha bir məsələ ətrafında fikirlərimi hörmətli oxucularla bölüşmək istəyirəm. İlk baxışdan adi görünən bir məsələ, əslində, çox ciddi məsələdir. Teatrlarda afişa məsələsi. Afişa teatrın tarixidir. Teatr mütəxəssisləri teatrın tarixini afişalar vasitəsilə müəyyən edirlər. Afişalarda tamaşalarda əsas obrazları ifa edən aktyorların şəkilləri verilirdi. Afişalar aparıcı aktyorların şəkilləri ilə tamaşaçını teatra cəlb edirdi.

Konkret misal çəkim. İki il bundan əvvəl Musiqili Teatrda Ramiz Mirişli ilə Tamara Vəliyevanın "Dəyərəm min cavana" tamaşasının afişasında bir neçə aktyorun şəkilləri verilirdi. Rəssam çəkmişdi, rəhmətə gedib. Həmin afişa teatrın bədii şurasında təsdiq edilmişdi. Amma indi afişa plakat formasında hazırlanır. İndi həmin tamaşanın afişasında aktyorların şəkillərinin yerinə dollar şəkli verilir. Bu barədə soruşanda mənə dedilər ki, yaşlı aktyorların şəkli nəyə lazımdır. Onlar bu gün var, sabah yoxdurlar. Utanmadan mənim üzümə dedilər...

Nə isə, milli teatrlarımızda problemlərimiz çoxdur. Ciddi işlər görülməlidir. Sabaha hesablanan işlər görməliyik. Və ən əsası isə, teatrı sevməliyik. Dostlar, gəlin, doğma teatrı sevək. Çünki əsr yarım yol gəlmiş Azərbaycan teatrı bu sevgiyə layiqdir.

Hələlik, bu qədər... Amma, əziz oxucular və teatrsevərlər, söhbətimizi davam etdirəcəyik...

**İlham Namiq Kamal**
**Xalq artisti, professor,**
**Prezident təqaüdçüsü**

# Hərbi təhsilini yarımçıq qoyub "müharibə dərsləri"nə başlamışdı...

O, Vətən müharibəsinin ən gənc şəhidlərindən biridir. Hələ ali hərbi təhsilini başa vurmamışdı. Əsir torpaqlarımızın yağıdan qurtuluş məqamında o da döyüşməyə qərar verir. Kiçik leytenant Namaz Baxış oğlu Allahverdiyevdən söz açırıq.



Namaz 2000-ci il iyunun 13-də Şəkinin Suçma kəndində anadan olub. 2006–2017-ci illərdə kənd tam orta məktəbində təhsil alıb. Təhsilini başa vuraraq Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. Hərbi məktəbdə oxuduğu zaman bilik və bacarıqlara dərindən yiyələnib, kursant yoldaşları və müəllim-zabitlərin rəğbətini qazanıb. Dəfələrlə fəxri fərman və təşəkkürnamə ilə təltif edilib. Bir ildən sonra təhsilini başa vurub zabit kimi hərbi xidmətə başlayacaqdı...

2020-ci ilin 27 sentyabrı. Azərbaycan Ordusu 30 ilə yaxın həqiqi sahiblərini gözləyən doğma torpaqları mənfur düşməndən azad etmək üçün tariximizin ən şərəfli səhifəsini yazmağa başlayır.

Namaz Allahverdiyev də əzəli yurd yerlərimizin qurtuluş məqamının yetişdiyi anda hərbi təhsilinin davamını deyil, cəbhəni, gerçək "müharibə dərsləri"ni seçir. Qəlbində də azad Şuşa eşqi!

Döyüş yolu Füzulidən başlayır. Hər gün Vətənin bir və ya bir neçə yaşayış məntəqəsini düşməndən təmizləyirlər. Gündən-günə qələbə əzmləri artır. Qala-şəhərimiz Şuşa qollarını açıb halal sahiblərini, igid oğullarımızı səsləyir. Keçilməz sıldırım qayalardan cəsur əsgərlərimizə yol verəcəyinə inandırır... Namaz və hərbçi yoldaşları niyyətlərinin mənzilinə yetişirlər. Şuşanın işğaldan azad olunmasında böyük qəhrəmanlıq göstərirlər. Gənc zabit noyabrın 8-də – tariximizə şanlı Şuşa zəfəri kimi həkk olunan gündə – şəhidlik zirvəsinə yüksəlir. Xalqımıza Şuşalı günləri bəxş edənlərin sırasına adını yazdıran Namaz Allahverdiyevə, təəssüf ki, mədəniyyət paytaxtımızın çal-çağırlı məqamlarını görmək nəsib olmur...

Şəhidin anası Nazilə xanım deyir ki, oğlunun ən böyük arzusu ali təhsilli hərbçi olmaq idi: "O, bu arzusuna öz səyi, bacarığı, savadı sayəsində çatdı. Yaşı az olsa da, kiçik qardaşı Şahruda ciddiyyəti, ailəcanlılığı, qayğıkeşliyi, kişi xasiyyəti ilə əsl örnək idi".

Atası Baxış Allahverdiyev bildirir ki, hərbi bilik və bacarıqlara yiyələnmək istəyi, ən başlıcası isə Vətənə olan sevgisi onun böyük coşqu ilə torpaqların işğaldan azad edilməsi uğrunda döyüşlərə könüllü şəkildə qatılmasına səbəb olmuşdu: "Hərbi məktəbdə könüllülük əsasında döyüş bölgəsinə getmək istəyi barəsində kursantların rəyi soruşulan zaman Namaz önə çıxıb döyüşə qatılmaq arzusunda olduğunu bildirmişdi. Bu, onun ilk və son döyüş yolu oldu".

Məktəbli yoldaşı Nihat Məmmədov Namazın çox etibarlı dost olduğunu deyir: "Heç kimlə bölüşə bilmədiyim fikirlərimi Namaza rahatlıqla etibar edə bilirdim. Dərslərimizə də bir yerdə hazırlaşardıq. Heç vaxt aramızda inciklik, küsülülük olmazdı. Təkcə mənimlə yox, hər kəslə səmimi idi Namaz. Ən böyük arzusu hərbçi olmaq idi. O, ali hərbi məktəbə daxil oldu, mənsə başqa universitetə. Amma əlaqələrimiz qırılmadı. İmkan tapdıqca, bayramlarda şəhərdə görüşərdik. Şəkil çəkdirir, gəzir, əylənirdik. Son məzuniyyətə gələndə ilk qarşılayan, gedəndə isə yola salan da mən oldum. Nə biləydik ki, bu, son gedişidir. Müharibə vaxtı hər dəfə zəng edəndə yeni alınan torpaqlarda olduğunu deyirdi, amma yerini dəqiq bildirmirdi. Şuşa alınanda sevincimi bölüşmək və təbrik etmək üçün zəng vurdum, cavab vermədi. Ağlıma gəlməzdi ki, mənim dostum şəhid olub. Məkanın cənnət olsun, əziz dostum, qəhrəmanım Namaz".

Namaz Allahverdiyev 17 noyabr 2020-ci ildə Suçma kəndində torpağa tapşırılıb. Dövlət başçısının sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Ruhu şad olsun.

**F.Yunisli**

# Şuşalı bəstəkarlar

**II yazı**

"Şuşa İli" münasibətilə qala-şəhərimizin Azərbaycanın musiqi mədəniyyətinə bəxş etdiyi sənətkarlar haqqında silsiləmizi davam etdiririk. "Şuşalı bəstəkarlar" rubrikasında bu dəfə Məşədi Cəmil Əmirovu və Əfrasiyab Bədəlbəylini yada salacağıq.



Məşədi Cəmil Əmirov 1875-ci ildə Şuşada anadan olub. O, musiqimizə dünya şöhrəti gətirənlərdən bəstəkar Fikrət Əmirovun atasıdır. İlk təhsilini mədrəsədə alıb, kiçik yaşlarından musiqiyə maraq göstərib. Tarzən kimi yetişməklə yanaşı, həm də xanəndə, bəstəkar olaraq tanınıb. Onun musiqi müəllimi ensiklopedik zəka sahibi, musiqiçi Mir Möhsün Nəvvab olub. Nəvvab Şuşanın musiqi məclislərinə onu da aparıb.

Məşədi Cəmil Əmirov qarmon, kamança və fortepianoda məharətlə ifa etməyi bacarıb. O, 1910-cu ildə bir qrup musiqiçi ilə birlikdə Latviyanın Riqa şəhərinə dəvət olunub, "Qrammofon" firması xanəndənin ifasında bir sıra muğamı və xalq mahnısını lentə alıb. Getdikcə populyarlaşan ifaçı Qarabağ bölgəsi ilə bərabər, Gəncə, Şəki, Şirvan və digər yerlərdə məclislərə dəvət olunur, sonra Gəncəyə köçür. Tarzən müxtəlif məclislərdə Malıbəyli Həmid, Musa Şuşinski, sonralar isə Bülbül və Seyid Şuşinskini müşayiət edib.

Sənətkar Gəncədə yerli ifaçıları cəlb etməklə Şərq musiqisi konsertləri verir, Üzeyir Hacıbəylinin əsərlərinin tamaşalarında Məcnun, Zeyd, Kərəm, Rza bəy və digər obrazları məharətlə canlandırır, teatr tamaşaları üçün yaradılmış orkestrə dirijorluq edir. M.C.Əmirov 1915-ci ildə isə "Seyfəl-mülk" operasını yazır. Həmin opera 1916-cı ildə Sidqi Ruhullanın quruluşunda əvvəl Tiflisdə, sonra isə İrəvanda göstərilir. 1916-cı ildə M.C.Əmirov gənc xanəndə Bülbüllə birlikdə Tiflis və İrəvanda konsertlər verir.

1911-ci ildə musiqi təhsili almaq məqsədilə İstanbula yollanan M.C.Əmirov orada iki il ərzində Şərq və Avropa musiqisinin incəliklərinə yiyələnir. Türkiyədə həm tarzən, həm də müğənni kimi konsertlər verir, muğam və təsnifləri, rəngləri məharətlə ifa edir.

Mənbələrdə musiqiçinin daha bir səhnə əsəri – "Namuslu qız" operettasını (1923) yazdığı qeyd edilir. Bu əsər Gəncədə səhnə həlli tapdıqdan sonra Azərbaycanın digər bölgələrində də uğurla göstərilib. Təəssüf ki, "Seyfəl-mülk" və "Namuslu qız" əsərləri tarixin dolanbaclarında yoxa çıxıb...

Onun ən böyük arzusu musiqi məktəbi açmaq idi. 1923-cü ildə bu arzunu gerçəkləşdirir, Gəncədə ilk musiqi məktəbini yaradır. Tarzən, bəstəkar və pedaqoq Məşədi Cəmil Əmirov 1928-ci ildə vəfat edib.

***

Əfrasiyab Bədəlbəylinin adı Azərbaycan musiqi mədəniyyəti tarixinə görkəmli bəstəkar, musiqişünas, dirijor, ictimai xadim kimi daxil olub. Lakin onun ən böyük tarixi nailiyyəti milli musiqi mədəniyyətində balet janrının əsasını ("Qız qalası") qoymasıdır.

Bəstəkar 1907-ci il aprelin 19-da Bakıda şuşalı tanınmış maarif xadimi, Qori Müəllimlər Seminariyasının məzunu Bədəl bəy Bədəlbəylinin ailəsində anadan olub. Bakıda 6-cı rus-müsəlman və 1-ci realnı məktəblərində təhsil alır. 1923-1926-cı illərdə Azərbaycan Teatr məktəbinin dinləyicisi olur, məktəbdə hazırlanan tamaşalarda həvəslə iştirak edir.

Ə.Bədəlbəyli daha sonra Musiqi Texnikumu və Azərbaycan Dövlət Universiteti (indiki BDU) Şərq fakültəsinin Linqvistika şöbəsində təhsil alır. O, professional musiqi təhsili almaq istəyirdi. 1932-ci ildə Moskva Konservatoriyasının Dirijorluq fakültəsində oxumağa yola düşür. Professor K.Saracevin sinfində təhsil alan gənc bu sənətin incəliklərinə mükəmməl yiyələnir. Ali məktəbdə oxuduğu zaman o, 8 variasiya, violonçel və fortepiano üçün sonatina, fortepiano üçün etüd, simfonik orkestr üçün III hissəli süita və s. əsərlərini yazır.

Lakin bir ildən sonra Moskvadakı təhsilini dayandırıb Bakıya qayıdır və R.Qlierin "Şahsənəm" operasını yeni quruluşda, C.Cabbarlının librettosu əsasında tamaşaya hazırlanmasında iştirak edir. 1934-cü ildə N.Rimski-Korsakov adına Leninqrad (indiki Sankt-Peterburq) Dövlət Konservatoriyası nəzdindəki Musiqi Texnikumunun Bəstəkarlıq şöbəsinə (B.Zeydmanın sinfi) daxil olur. Eyni zamanda Leninqrad Opera və Balet Teatrının baş dirijoru V.Dranişnikovun rəhbərliyi altında dirijor assistenti kimi işləməyə başlayır.

1938-ci ildə Leninqraddakı təhsilini müvəffəqiyyətlə başa çatdıran Ə.Bədəlbəyli Vətənə qayıdır və qardaşı Turqud Bədəlbəylinin librettosu əsasında uşaqlar üçün birpərdəli "Tərlan" balet-nağılını bəstələyir.

8 aprel 1940-cı il. Bu gün Azərbaycan musiqi mədəniyyəti tarixinə milli balet sənətinin təməlinin qoyulduğu gün kimi daxil olur. Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsində Ə.Bədəlbəylinin "Qız qalası" baletinin premyerası keçirilir.



Daha sonra sənət uğurları biri-birini əvəz edir. Yeni əsərlər bəstələyir, baletlərə libretto, tamaşalara musiqilər yazır. Azərbaycan və xarici ölkə bəstəkarlarının opera və baletlərinə dirijorluq edir. O, həmçinin "İzahlı monoqrafik musiqi lüğəti"ni çap etdirir.

Ə.Bədəlbəyli 1940-cı ildə "Əməkdar incəsənət xadimi", 1960-cı ildə "Xalq artisti" fəxri adlarına layiq görülüb. 1976-cı il yanvarın 6-da dünyasını dəyişib.

**Lalə**

# "Aşıq təcnisləri" antologiyası

Azərbaycan Aşıqlar Birliyində nəşrə hazırlanmış daha bir kitab – "Aşıq təcnisləri" antologiyası işıq üzü görüb. Antologiya ilkin cinaslı nümunələrdən günümüzə qədər aşıq yaradıcılığından örnəkləri – Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Şəmkirli Hüseyn, Aşıq Ələsgər, Molla Cuma, Hüseyn Bozalqanlı, Növrəs İman, Aşıq Şəmşir kimi söz ustadlarının, eləcə də XX yüzilliyin aşıq və təcnisə meyil göstərən qələm sahiblərinin yaradıcılığından nümunələri əhatə edir.

Kitabda 120-dən çox müəllifin otuza yaxın təcnis çeşidini əhatələyən beş yüzə qədər örnək yer alıb. Qeyd etmək lazımdır ki, zəngin cinas örnəkləri və biçimlərini əhatələyən belə poetik nümunələr indiyə qədər toplu səviyyəsində bir yerə yığılıb antologiya kimi çap olunmayıb. "Aşıq təcnisləri" bu sahədə ilk təşəbbüs və ilk uğurlu addımdır.

Sənət meydanında söz yükünün möhtəşəmliyini əhatələyən bu örnəklər xalqın dil zənginliyinin əvəzsiz göstəricisi olaraq da böyük əhəmiyyət kəsb edir. Belə bir zəngin xəzinənin bir araya gətirilərək antologiya səviyyəsində gələcək nəsillərə çatdırmaq uzun illər aşıqşünasların qarşısında ümdə məsələlərdən biri olub.

Kitabın elmi məsləhətçisi və nəşrə hazırlayanlardan biri, Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlının da qeyd etdiyi kimi, mürəkkəb məzmun və forma zənginliyi ilə səciyyələnən təcnislər bu adla sənət aləmində tanınacaq "təcnis ustadları"nı formalaşdırıb: "Azərbaycan aşıq poeziyasının və saz havalarının içərisində poetik dolğunluğu və melodik təkrarsızlığı ilə seçilən "təcnis" şeir biçimi və "Təcnis" saz havası həm onun yaradıcı və ifaçısının, həm də dinləyici və oxucusunun yüksək səviyyədə duyğu, düşüncə və qavrayış həssaslığına malik olmasını tələb edir... Mənsub olduğu xalqın dilinə dərindən bələd olmadıqda, ayrı-ayrı söz, deyim və ibarələrin üslubi incəliklərinin ilk baxışdan sezilməyən alt qatlarına baş vura bilmədikdə təcnis sənətkarlığının ecazlarını nümayiş etdirmək mümkün deyil. Ustad aşıqlarımız, saz şairlərimiz məhz sözügedən poetik-üslubi gözəllikləri kəşf edib ortaya çıxarmaqla öz istedadları gücünə ağıl və könül qüdrətlərini ortaya qoyublar".




Bu baxımdan ilk dəfə işıq üzü görən antologiya saz-söz sənətinə yeni gələn gənclər üçün aşıq təcnisləri ilə bağlı üz tuta biləcəkləri etibarlı mənbə olmaqla yanaşı, eyni zamanda folklorşünas tədqiqatçılar, müvafiq sahə üzrə təhsil alan ali və orta ixtisas məktəbi tələbələri üçün də qiymətli vəsaitdir.

1000 tirajla çap olunmuş "Aşıq təcnisləri" antologiyasını professorlar Məhərrəm Qasımlı, Mahmud Allahmanlı və filologiya üzrə fəlsəfə doktoru, dosent Altay Məmmədli hazırlayıblar. Kitabın redaktoru filologiya üzrə fəlsəfə doktoru, dosent Aynur Xəlilovadır.

# "Qarabağın qadın aşıq və şairləri"

## Natəvanın 190 illiyinə həsr olunan elmi konfrans

İyunun 21-də AMEA Folklor İnstitutunda Xurşidbanu Natəvanın (1832-1897) anadan olmasının 190 illiyi münasibətilə "Qarabağın qadın aşıq və şairləri" mövzusunda elmi konfrans keçirilib.

Konfransı institutun baş direktoru, akademik Muxtar Kazımoğlu-İmanov açıb.

İnstitutun Folklor və yazılı ədəbiyyat şöbəsinin müdiri, filologiya elmləri doktoru Leyla Məmmədovanın "Xurşidbanu Natəvanın qəzəllərində klassik və müasir ənənələr" və Cənubi Azərbaycan folkloru şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Mətanət Abbasovanın "Qarabağın qadın şairləri poeziya və siyasət müstəvisində" mövzusunda məruzələri dinlənilib.

AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun əməkdaşı, fəlsəfə üzrə fəlsəfə doktoru Faiq Ələkbərli "Xurşidbanu Natəvanın yaradıcılığında ictimai-fəlsəfi məsələlər", Folklor İnstitutunun böyük elmi işçisi Qumru Şəhriyar "XIX əsrdə Qarabağ ədəbi mühitində yetişən üç qadın sənətkar", DİN-in Polis Akademiyasının əməkdaşı Aynur Səfərli "Qarabağın ilk qüdrətli qadın aşığı – Aşıq Pəri Maralyanlı", Gəncə Dövlət Universitetinin doktorantı Ramilə Süleymanova "Şuşa poeziya məktəbinin görkəmli nümayəndəsi – Fatma xanım Kəminə", Folklor İnstitutunun dissertantı Zülfiyyə Məmmədhüseynova "XIX əsr Qarabağ ədəbi mühitinin aparıcı qadın nümayəndələri" və həmin institutun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Atif İslamzadə "Xurşidbanu Natəvan poeziyasında vahid Allah inancı (folklor və yazılı ədəbiyyat konteksti)" mövzularında məruzələr ediblər.

# Yazıçı, maarifçi, xeyriyyəçi

O, ədəbi yaradıcılığa 55 yaşında gəlib və "Kitab yüklü eşşək" alleqorik romanı ilə adını Azərbaycan nasirləri sırasına yazdırıb. Mirzə Əbdürrəhim Talıbov yazıçılıqla yanaşı, publisist, maarifçi və xeyriyyəçi kimi də tanınıb.

Mirzə Əbdürrəhim Əbutalib Nəccar Təbrizi oğlu Talıbov 1837-ci ildə Təbriz şəhərinin Sərxab məhəlləsində dülgər ailəsində dünyaya göz açıb. İbtidai təhsilini mollaxanada alır. Sonra mədrəsədə oxuyur. Burada ərəb və fars dillərini öyrənir. O daha sonra rus dili ilə maraqlanır. Bu dili öyrənmək və təhsilini yüksəltmək məqsədilə Tiflisə gedir. Rus, ingilis və fransız dillərini öyrənir. Tiflisdə təhsil aldığı dövrdə rus sosial-demokratları və rus yazıçılarının əsərlərini oxuyur. Onların fikir və həyata baxışlarından təsirlənir. Qafqazda yol və körpülərin tikintisi ilə məşğul olan Məhəmməd Əli Xan Kaşanın kontorunda işə düzəlir. Bir müddət sonra Temirxan-Şuraya (indiki Dağıstanın Buynaksk şəhəri) köçür. Burada şəxsi yol tikintisi kontorunu açır. Qafqaz-Stavropol şose yolu çəkilməsi işi onun kontoruna verilir. Üzərinə götürdüyü iş və öhdəlikləri vaxtından əvvəl yerinə yetirir. Maddi cəhətdən imkanı yaxşılaşır. Özünə mənzil alır, şəxsi kitabxana tikdirir. Əslən Dərbənddən olan bir xanımla ailə qurur. Bir çox xeyriyyə cəmiyyətlərinə maddi yardım göstərir. Bakı və Temirxan-Şurada maarif və mədəniyyət işlərinə qayğı ilə yanaşır. Xüsusilə bu şəhərlərdə qızlar məktəbinin açılması üçün maddi yardım edir.

Mirzə Əbdürrəhim Talıbov ömrünün müdrik çağlarında müqəddəs məbədlərlə maraqlanır, həcc ziyarətində olur. 1902-ci ildə gözlərini müalicə etdirmək üçün Berlinə gedir. 1907-ci ildə Təbrizdən İranın birinci Milli Məclisinə deputat seçilir. Ancaq o, bu vəzifəni icra etməkdən imtina edir...

Araşdırmalarda qeyd edilir ki, M.Ə.Talıbov yaradıcılığa 55 yaşından sonra başlayıb. Ana dilimizi gözəl bilsə də, əsərlərini farsca yazıb. İki kitabından başqa, qalan əsərlərini öz şəxsi vəsaiti hesabına çap etdirib. "Azadlıq haqqında izahat" adlı kitabı İranda Məşrutə inqilabının qələbəsindən sonra (1906), "Talibin siyasəti" kitabı isə ölümündən bir neçə ay sonra (1911) Tehranda işıq üzü görüb.



Yazıçıya geniş şöhrət gətirən əsəri isə "Kitab yüklü eşşək" alleqorik romanıdır. Bu, müəllifin ilk bədii əsəri hesab olunur. Məlumdur ki, bu əsərə qədər dünya ədəbiyyatında alleqorik üsulla insanları tərbiyə etmək istəyən yazıçılar olub. Ancaq "Kitab yüklü eşşək" romanı əvvəlki əsərlərdən fərqli olaraq çox düşündürücüdür. Əsər Coşşanın ağasına yazdığı nəsihətlərdən ibarətdir. Sonda olan sual-cavab isə oxucuya təsirsiz ötüşmür. Əsərin qəhrəmanı Coşşa gözəl, iri gözləriylə insan övladında müşahidə etdiklərini sakitliklə ağasının üzünə çırpır.

Tanınmış yazıçı yaradıcılığının müəyyən hissəsini uşaqlara həsr edib. Onun "Talibin gəmisi", yaxud "Əhmədin kitabı" əsəri Azərbaycan ədəbiyyatında uşaqların həyatından bəhs edən ilk kitabdır. Müəllifin özünün yazdığına görə, o, bu əsəri Jan Jak Russonun "Emil və ya tərbiyə haqqında" əsərindən təsirlənərək yazıb. Kitab müəllif və onun uydurulmuş 7 yaşlı oğlu arasında baş verən dialoqlardan ibarətdir. Burada oğulun ataya sualları ilə tarixi, elmi, siyasi və dini məsələlərə aydınlıq gətirilir.

M.Ə.Talıbovun "Xeyirxahların yolu", "Həyat məsələləri" və digər əsərləri də maraqla qarşılanıb. "Xeyirxahların yolu" əsərində əsas personaj mühəndislər Mustafa və Hüseyn, həkim Əhməd və kimya müəllimi Məhəmməddir. Onlara Dəmavənd dağına getmək və burada araşdırmalar aparıb hesablamalar etmək tapşırılır. Yolboyu onlara müctəhid, dərviş və çəkməçi rast gəlir. Tədqiqatçıların qarşısına çıxanlar nədənsə öz siyasi, sosial problemlərini dilə gətirməyə, birləşərək islahatlar aparmağa çəkinirlər... Müəllif təsvir etdiyi dialoqlarda İranın şah rejiminə, ölkədə baş verən sosial və siyasi problemlərə toxunur. Qabaqcıl ideyalar, xeyirxah əməllər təbliğ olunur.

Mirzə Əbdürrəhim Talıbov 11 mart 1911-ci ildə Dağıstanda, Temirxan-Şura şəhərində vəfat edib.

**Savalan Fərəcov**

# Əzizə Cəfərzadənin tarixi romanları Türkiyədə nəşr edilir

İstanbul şəhərindəki "Bengisu yayınları" tərəfindən Xalq yazıçısı, filologiya elmləri doktoru, professor Əzizə Cəfərzadənin (1921-2003) kitablarının nəşri həyata keçirilir. 2022-ci ilin əvvəlindən ədibin üç kitabı Türkiyə türkcəsində işıq üzü görüb.

Bu barədə yazıçının oğlu Turan İbrahimov məlumat verib. O deyib: "2021-ci ilin noyabrında tərcüməçi Mustafa Öğünçlə imzaladığımız müqavilə əsasında yazıçının 5 kitabının 5 il müddətində Türkiyədə nəşr edilməsinə icazə verilib. Bu kitablardan birincisi klassik ədəbiyyatımızın böyük şairi Məhəmməd Füzuli və "Mühibbi" təxəllüsü ilə qəzəllər yazmış Sultan Süleyman Qanuni haqqında "Eşq sultanı" romanıdır. Türkiyə ilə ortaq ədəbiyyat dəyərlərimizi canlandıran bu roman Əzizə Cəfərzadənin son əseridir və onu audioformatda diktofona yazıb.










Mən onu ilk dəfə 2005-ci ildə professor Vaqif Sultanlının redaktəsi ilə nəşr etdirmişəm.

İkinci çap olunan kitab "Sabir" romanıdır. Əsər satirik şairimiz Mirzə Ələkbər Sabirin həyatından bəhs edir və onun bu il qeyd olunan 160 illik yubileyinə bizim töhfəmizdir. Üçüncü kitab isə dövründə Əzizə Cəfərzadəni ən çox məşhurlaşdıran, böyük şair və mütəfəkkir Seyid Əzim Şirvanidən bəhs edən "Aləmdə səsim var mənim" romanıdır".

Turan İbrahimov yazıçının digər əsərlərinin də Türkiyə türkcəsinə çevrilməsi və nəşri üzərində işlərin davam etdirildiyini bildirib. "Bengisu yayınları" ilə müqaviləyə əsasən, "Bakı-1501" (Şah İsmayıl Səfəvi haqqında) və "Yad et məni" (Abbas Səhhət və müasirləri haqqında) romanları da Türkiyə oxucularına təqdim ediləcək: "Bu kitabları türkcəyə çevirən Mustafa Öğünç müasir türk dili və ədəbiyyatı üzrə təhsil almış istedadlı gəncdir. Ona Azərbaycan-Türkiyə münasibətlərində mühüm əhəmiyyət kəsb edən bu işlərində uğurlar diləyirik.

"Eşq sultanı" və "Aləmdə səsim var mənim" kitablarının türkcə variantını diqqətlə oxuyub qeydlər etmiş, həmyerlimiz riyaziyyatçı, Ankara Universitetinin professoru Şahin Əmrahın da böyük zəhməti var. Onu da qeyd edim ki, Şahin Əmrah "Aləmdə səsim var mənim" romanında adı dəfələrə çəkilən din xadimi Hacı Məcid Əfəndinin kötücəsidir. "Sabir" romanının türkcə variantının orijinala uyğunluğunu isə yazıçının qardaşı nəvəsi Aygül Cəfərzadə yoxlayıb".

Qeyd edək ki, Əzizə Cəfərzadənin ilk dəfə "Anamın nağılları" kitabı 1990-cı ildə Türkiyədə çap edilib. 2006-cı ildə isə yazıçı-alimin toplayıb tərtib etdiyi "Azərbaycan aşıq və şair qadınları" kitabı Çingiz Alyılmaz tərəfindən Türkiyə türkcəsinə çevrilərək nəşr edilib.

## Səməd Behrəngi adına mükafatın təqdimatı keçirilib

Azərbaycan Yazıçılar Birliyinin (AYB) Səməd Behrəngi adına ədəbi mükafatının növbəti laureatları elan olunub. AYB-nin Cənubi Azərbaycan Ədəbiyyatı komissiyasının təsis etdiyi mükafatın 8-ci təqdimat mərasimi Natəvan klubunda keçirilib.

Bu dəfə mükafata layiq görülənlər arasında Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli, AYB-nin beynəlxalq əlaqələr üzrə katibi Səlim Babullaoğlu, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan, şair, AYB-nin Lənkəran bölməsinin sədri Qafar Cəlilov, ədəbiyyatşünas Zöhrə Əsgərova, "Varlıq" jurnalının baş redaktoru Məhəmmədrza Heyət, Daşkənddəki Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov və AMEA Əlyazmalar İnstitutunun aparıcı elmi işçisi Kərimulla Məhəmmədzadə və başqaları var.

# "Görünməz adam"ın sənət dünyası

Azərbaycan qrafikasının altmışıncı illərə təsadüf edən inkişafı və əldə olunan müvəffəqiyyətlərin kökündə bu sahədə ciddi rəqabətin mövcudluğu dururdu, desək, yanılmarıq. Həmin dövrdə qrafika ilə Ələkbər Rzaquliyev, Cəmil Müfidzadə, Altay Hacıyev, Nazim Babayev, Yusif Hüseynov, Rafiq Mehdiyev, Maral Rəhmanzadə, Elmas Hüseynov və Elmira Şahtaxtinskaya kimi sənətkarlar məşğul olurdular. Odur ki, əllinci illərin sonlarında təhsilini başa vurub sənət meydanında özünə yer tutmağa səy göstərən Bəyim Hacızadənin (1927-2017) bu sahənin seçilənləri sırasına daxil olması yalnız onun fərdi qrafika estetikası nümayiş etdirməsi sayəsində mümkün idi. Bu mənada onun dəzgah qrafikasının ifadə vasitələrinə fərqli münasibət bəsləməsi, davamlı olaraq axtarışlar aparması da təbii idi. Bunun əyani nəticələrini Bəyim Hacızadənin elə altmışıncı illər yaradıcılığında izləmək olar...



Azərbaycanda peşəkar fotoqrafiyanın əsasını qoyanlardan biri hesab olunan Əzizbala Hacıyevin (1895-1973) ailəsində dünyaya göz açan Bəyim sonradan rəsm çəkməyə olan həvəsini Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində təhsil almaqla (1945-1950) təsdiqləmişdi. Sonradan onun Sankt-Peterburqdakı (keçmiş Leninqrad) nüfuzlu Baron Ştiqlis adına Rəssamlıq Akademiyasında (keçmiş V.Muxina adına Ali Bədii-Sənaye Məktəbi) oxuması (1951-1957) və qazandığı ilk sənət uğurları təsviri sənət məkanına geniş bədii-texniki potensiala malik yaradıcının gəlişindən xəbər verirdi...

Müəllifin bu orijinallığı ilk növbədə onun həyata yeni baxışında ifadə olunmuşdu. Öz növbəsində bu yeniliyi rəssamın ənənviləşən mövzulara fərqli baxış nöqtəsindən nəzər yetirməsi, motivləri duyulası stilizə və ümumiləşdirmələrlə təqdim etməsi şərtləndirirdi. Onun əksər əsərlərini səciyyələndirən ifadəli siluet və bədii ritmin axıcılığı, cizgi qənaətcilliyi və rəng lakonikliyi zamansızlığa qovuşduğu birmənalı olan qədim miniatür üslubu estetikasından qaynaqlandığından, müxtəlif süjetli əsərlərinin cəlbediciliyi elə ilk baxışdan duyulan olmuşdur. Kağız səthinin ağlığından təsiredici vasitə kimi istifadə edən rəssam, forma-biçim improvizələri ilə təqdim etdiyi təsvirlərin qabarıqlığını əldə etməklə, həm də görüntülərin monumentallığına nail ola bilmişdir. Bu da milli qrafika sənətində əvvəllər müşahidə olunmayan bədii şərh yeniliyi sayılmalıdır.





Bu yerdə deyək ki, adı və əsərləri o vaxtlardan sənətsevərlərin dilinin əzbərinə çevrilən Bəyim Hacızadə nədənsə, tamaşaçı-sənətsevər ünsiyyətinə meyilli olmadığından, çox vaxt sənət məkanında "görünməz" adı ilə tanınardı. O, ömrünün sonuna kimi bu fiziki "görünməz"liyini qoruyub saxladı, desək, yanılmarıq. Əslində, həmkarlarının da dərin rəğbətini qazanan qrafika ustasının bu görünməzliyi həm onun sadəliyinin, həm də ailəsinə və emalatxanasına daha çox bağlılığının ifadəsi idi.

Bəyim Hacızadənin əsərlərinin bədii xüsusiyyətlərindən söz açmalı olsaq, onda onun altmışıncı illərdə linoqravüra texnikasına müraciətinin özünəməxsus bədii-texniki məziyyətlərlə seçildiyini vurğulamalıyıq. Müxtəlif mövzulu bu linoqravürləri orijinal bədii həllinə görə yalnız sənətkarın müasiri olmuş Ə.Rzaquliyevin "Köhnə Bakı" silsiləsi ilə müqayisə etmək mümkündür.

Ani baxışla belə onun yaradıcılığında uşaq dünyasının qabarıq yer tutduğunu demək mümkündür. Rəssam bu mövzuya müxtəlif illərdə müraciət etsə də, məhz belə çoxsaylı əsərlər vasitəsilə uşaqların təbiətə münasibətini, onların dünyanı dərkini, yaradıcılıq sevincini, nəsillərin varisliyini, insanların bir-birini anlamasını və dünya dəyişkənliyini həm cəlbedici, həm də düşündürücü-fəlsəfi tutumda bədiiləşdirə bilmişdir.

Bəyim Hacızadənin linoqravüra texnikasına münasibəti kifayət qədər özünəməxsus olmuşdur. Onun əsərlərində bu texnikanın yeni və digərlərindən fərqli ifadə potensialını müşahidə etmək mümkündür. Süjetli kompozisiyalardan və portretlərdən ibarət olan bu lövhələrdə qrafik cizgilərin poetik-axıcı, bir qədər də duyğulandırıcı tutum alması kifayət qədər qabarıq görünür.

Altmışıncı illərdə "Yay" silsiləsi ilə uşaq aləminə əhatəli nəzər salan Bəyim Hacızadə yetmişinci illərdə və sonralar da davam etdirəcəyi bir neçə silsilənin başlanğıcını qoymuşdur. "Böyük dünya", "Sevinc", "Uşaq bağçası", "Birinci sinif", "Məktəb" və "Tətil" silsilələri uşaq dünyası haqqında bədii salnamə təəssüratı oyadır. Bura daxil olan "Kitablar", "Şifahi hesablama", "Musiqi", "Əlifba", "Sahil", "Yelləncək", "Top", "Şəkilçəkən qız", "Qış" və s. lövhələrini də dediklərimizin təsdiqi saymaq olar. Bu əsərlərdə rəssamın dəstxətti üçün səciyyəvi olan geniş bədii ümumiləşdirmə, şərti-rəmzi bədii həll görünməkdədir...

Bəyim Hacızadənin "Qış" və "Yay" silsilələrindən olan "Zəfəran", "Cırcırama", "Zəncirotu", "Akvarium" və s. əsərlərində gözümüzdə adiləşən həyati motivlərə nüfuzedici bədii rəssam münasibəti mövcuddur. O, ağ-qara cizgilərlə ifadə olunmuş əsərlərində təbiətlə körpələrin təmasını əks etdirməklə bərabər, dünyanı dərk etməyin sevincini, canlılar aləminin vəhdətini, bir-biri ilə qırılmaz tellərlə bağlılığını özünəməxsus tərzdə tərənnüm etmişdir. Geniş bədii ümumiləşdirmələrlə təqdim olunmuş müxtəlif motivlərin zamansızlığa qovuşmasının nəticəsidir ki, onlardakı məna-məzmun daşıyıcılığı tamaşaçısı üçün cəlbedici olmaqla yanaşı, həm də duyğulandırıcıdır. Yığcam ifadə vasitələrilə gerçəkləşmiş lövhələrdəki emosionallığın – yaşantı və ovqatın qabarıqlığının da yüksək müəllif sənətkarlığı ilə əldə olunduğu birmənalıdır...



Qrafika sahəsində yaratdığı özünəməxsus şərhli linoqravürləri ilə tanınan Bəyim Hacızadənin də yaradıcılığında inandırıcılığına görə seçilən bədii stilizələrin çox maraqlı nümunələrinə rast gəlinir. Kağız üzərindən "boylanan" görüntülərin bəzən vərəqə sığışmayan təqdimatı, təsvirlərin monumentallığını şərtləndirən duyulası lakonikliyi həm də cizgi incəliyinə bələndiyindən cəlbedici qəbul olunur. Onun 1985-ci ildə Bakıda keçirilən ilk fərdi sərgisində görkəmli qrafika ustasının özünəməxsus yaradıcılıq potensialına malik olduğunu görmək olardı. Burada nümayiş olunan otuzdan çox əsər arasında müəllifin müxtəlif silsilələrindən seçmələr üstünlük təşkil edirdi. 1988, 2004 və 2008-ci illərdə təşkil olunan fərdi sərgilərində də müəllifin yüksək qrafik mədəniyyət nümayişinə şahidlik etmək mümkün idi.

Qeyd etmək lazımdır ki, Bəyim xanımın altmış ili əhatə edən yaradıcılığı təkcə qrafik əsərlərin yaradılması ilə məhdudlaşmır. Onun gerçəkliyə münasibətini özündə yaşadan rəngkarlıq əsərləri və mozaikalar da dediklərimizi təsdiqləyir. Bu mənada müəllifin hələ "Əzimzadə məktəbi"ndə oxuyarkən çəkdiyi "Qəhrəmanla görüş" əsəri, eləcə də "Şairə Xurşidbanu Natəvanın portreti", "Yay", "Nəsirəddin Tusinin portreti", "Ömrün sonuncu dəqiqələri", "Abşeronda bağ", "Akvarium", "Qorxmaz" və "Futbolçu" tabloları, "Yatmış uşaq" və "Analıq" mozaikalarının özünəməxsus estetikaya malik olduğunu deyə bilərik.

Sonda deyək ki, Bəyim Hacızadənin əsərləri sovet dönəmində və müstəqillik illərində onlarla xarici ölkədə Azərbaycan təsviri sənəti sərgisində uğurla nümayiş etdirilmişdir. O, 1988-ci ildə respublikanın "Əməkdar rəssam"ı fəxri adına layiq görülmüş, Azərbaycan qrafika sənəti saxlancına verdiyi töhfələrə görə 2001-ci ildə "Humay" milli mükafatı ilə təltif olunmuşdu. 2011-ci ildə "Xocalı" rəsm müsabiqəsinin laureatı olmuşdu...



**Ziyadxan Əliyev**
**Əməkdar incəsənət xadimi, professor**

## Xatirə təqvimi — 25-28 iyun

### Azərbaycan

**25 iyun 1907** – Xalq artisti Sona Salman qızı Hacıyeva (1907 – 24.12.1979) Şəkidə doğulub. 1923-cü ildən Akademik Dram Teatrının aktrisası olub. "Bəxtiyar", "O olmasın, bu olsun", "Qızmar günəş altında", "Səhər" filmlərində çəkilib.

**25 iyun 1939** – Əməkdar mədəniyyət işçisi Adil Soltan oğlu İsmayılov (1939-2011) anadan olub. 1959-cu ildən "Azərbaycanfilm" Kinostudiyasında çalışıb, bir sıra filmlərin 2-ci rejissoru olub.

**25 iyun 1940** – Əməkdar artist, müğənni Yaşar Abutalıb oğlu Səfərov (1940-2007) Naxçıvan MR Şahbuz rayonunda doğulub. Azərbaycan Televiziyası və Radiosunun solisti olub.

**25 iyun 1980** – Yazıçı, ssenarist, rejissor, Xalq artisti Həsən Mehdi oğlu Seyidbəyli (22.12.1920 – 1980) vəfat edib. "Uzaq sahillərdə" (İ.Qasımovla birgə), "Cəbhədən cəbhəyə" romanlarının, pyeslərin müəllifidir. "Telefonçu qız", "Bizim Cəbiş müəllim", "Nəsimi" filmlərinə quruluş verib.

**26 iyun 1922** – Əməkdar memar Şəfiqə Mikayıl qızı Zeynalova (1922-1979) anadan olub.

**26 iyun 1929** – Əməkdar elm xadimi, həkim-yazıçı Nurəddin Məmmədbağır oğlu Rzayev (1929 – 17.10.2011) Gədəbəy rayonunda doğulub. Türkologiya, tarix, ədəbiyyat və s. mövzularda elmi-publisistik məqalələrin müəllifidir.

**26 iyun 1939** – Musiqişünas alim, fəlsəfə elmləri doktoru, professor Babək Osman oğlu Qurbanov (1939 – 28.3.2019) Qazax rayonunda anadan olub. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, Türkiyədə Qaziantep Universitetinin Türk Musiqisi Dövlət Konservatoriyasında çalışıb.

**26 iyun 1945** – Əməkdar incəsənət xadimi, kinooperator Valeri Sultan oğlu Kərimov (1945 – 9.3.1998) Bakıda doğulub. 1974-cü ildən "Azərbaycanfilm" Kinostudiyasında işləyib. Çəkdiyi filmlər: "Alma almaya bənzər", "Arxadan vurulan zərbə", "Qızıl uçurum", "Sizi dünyalar qədər sevirdim" və s.

**26 iyun 1946** – Əməkdar artist Əli Məmməd oğlu Salahlı (Salayev; 1946-2005) Masallı rayonunda doğulub. Lənkəran Dövlət Dram Teatrının aktyoru olub.

**27 iyun 1951** – Əməkdar incəsənət xadimi, aşıq Əsəd Əhməd (Məhəmməd) oğlu Rzayev (1874, Tovuz - 1951) vəfat edib.

**27 iyun 2013** – Xalq artisti Siyavuş Məmmədağa oğlu Aslan (5.9.1935 – 2013) vəfat edib. Musiqili Komediya, Akademik Milli Dram teatrlarında çalışıb, kinoda maraqlı obrazlar qalereyası yaradıb.

**28 iyun 1842** – Maarifçi, təbiətşünas alim, publisist Həsən bəy Zərdabi (Məlikov; 1842 – 28.11.1907) anadan olub. 1875-ci il iyulun 22-də "Əkinçi" qəzeti ilə Azərbaycanda milli mətbuatın əsasını qoyub. Moskva Universitetini namizədlik diplomu ilə bitirən ilk müsəlman, Bakı gimnaziyasının ilk müsəlman müəllimi olub.

**28 iyun 1914** – Xalq artisti Barat Həbib qızı Şəkinskaya (1914 – 13.1.1999) Şuşada doğulub. 1935-ci ildən Akademik Milli Dram Teatrının aktrisası olub, bir müddət Gəncə teatrında çalışıb. "Görüş", "O olmasın, bu olsun", "Onun bəlalı sevgisi" və s. filmlərdə maraqlı obrazlar yaradıb.

**28 iyun 1925** – Xalq artisti Gülağa Allahverdi oğlu Məmmədov (1925 – 7.6.1994) anadan olub. 40 ildən çox Azərbaycan Televiziya və Radiosu Səid Rüstəmov adına xalq çalğı alətləri ansamblının solisti olub. "Dəli Kür", "Sən niyə susursan" və s. filmlərdə mahnıları ifa edib.

**28 iyun 1935** – Xalq artisti, professor Ağakişi Şəmməd oğlu Kazımov (1935 – 8.10.2021) Ağcabədi rayonunda doğulub. Musiqili Komediya, Opera və Balet, Gənc Tamaşaçılar, Akademik Milli Dram teatrlarında rejissor işləyib. Mədəniyyət və İncəsənət Universitetində dərs deyib. "Yük" filmində (H.Z.Tağıyev) çəkilib.

**28 iyun 1971** – Məşhur opera müğənnisi Eldar Tofiq oğlu Əliyev (1971 – 4.8.2020) Bakıda anadan olub. Bakı Musiqi Akademiyasında və İtaliyada vokal təhsili alıb. 1994-cü ildən 2005-ci ilədək Milanda "La Skala" teatrının solisti olub, Avropanın bir çox teatrlarının səhnəsində çıxış edib.

### Dünya

**25 iyun 1709** – İtaliya bəstəkarı Françesko Arayya (Francesco Domenico Araia; 1709-1770) anadan olub. "Semiramida", "Aleksandra Hindistanda" və s. operaların müəllifidir.

**25 iyun 1903** – İngilis yazıçısı Corc Oruell (George Orwell - Eric Arthur Blair; 1903-1950) anadan olub. Rusiyadakı 1917-ci il inqilabına alleqoriya olan "Heyvan tövləsi" povestinin, "1984" antiutopiya-romanın müəllifidir.

**25 iyun 1963** – Yunan əsilli ingilis müğənnisi və bəstəkarı Corc Maykl (George Michael – əsl adı Georgios Kyriakos Panayiotou; 1963-2016) anadan olub.

**26 iyun 1763** – İngilis rəssamı Corc Morland (George Morland; 1763-1804) anadan olub.

**26 iyun 1892** – Amerika yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1938) Perl Bak (Pearl Sydenstricker Buck; 1892-1973) anadan olub. Əsərləri: "Şərq küləyi, qərb küləyi", "Dağılan ev", "Böyük dalğa" və s.

**27 iyun 1940** – Aktyor, müğənni, Rusiyanın Xalq artisti Boris Xmelniski (1940-2008) anadan olub. "Robin Qudun oxları", "İgid cəngavər Ayvenqo" və s. filmlərdə çəkilib.

**27 iyun 1941** – Polşa kinorejissoru Kşiştof Keslovski (1941-1996) anadan olub. "Həyatın rəngləri", "Dekaloq" və s. filmlərin müəllifidir.

**28 iyun 1577** – Niderland (flamand) rəssamı Piter Paul Rubens (Peter Paul Rubens; 1577-1640) anadan olub. Mifoloji və dini mövzuda bir çox əsərlərin müəllifidir. Portret və peyzaj ustası kimi də tanınıb.

**28 iyun 1712** – Fransız yazıçısı və mütəfəkkiri, maarifçi Jan-Jak Russo (Jean-Jacques Rousseau; 1712-1778) anadan olub. "Yeni Eloiza", "Emil" romanları, fəlsəfi əsərlərin müəllifidir.

**28 iyun 1867** – İtalyan yazıçı-dramaturqu, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1934) Luici Pirandello (Luigi Pirandello; 1867-1936) anadan olub. Əsərləri: "Mərhum Mattia Paskal", "Qocalar və cavanlar" (romanlar), "Liola" , "Hər kəs özünə görə", "IV Henrix" (pyeslər).

**Hazırladı: Vüqar Orxan**

## "Azərbaycanfilm"in ssenari müsabiqəsinin müddəti uzadılıb

C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasının elan etdiyi Qarabağ mövzusunda ssenari müsabiqəsinə sənədlərin qəbulu mərhələsinin müddəti uzadılıb.

"Azərbaycanfilm"in 100 illiyi münasibətilə keçirilən müsabiqənin məqsədi kinematoqrafiya sahəsində çalışan yaradıcı şəxslərə dəstək olaraq, onların fəaliyyətini stimullaşdırmaq, yeni yaradıcı qüvvələri prosesə cəlb etmək və kinostudiyanın ssenari portfelini formalaşdırmaqdır.

Reqlamentə əsasən, iyun ayının 30-da layihələrin qəbulu başa çatmalı idi. Lakin çoxsaylı müraciətlər nəzərə alınaraq bu mərhələnin iyul ayının 15-nə qədər uzadılmasına qərar verilib. Layihələrin qəbulu musabiqe@azerbaijanfilm.az elektron poçt ünvanı vasitəsilə aparılır.

Qaliblər 2022-ci il avqust ayının 2-də – Azərbaycan Kinosu Günündə elan olunacaq.

# Malayziyada Şuşanın 270 illiyinə həsr olunmuş fotosərgi

Malayziyada Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın 270 illiyinə həsr olunan fotosərgi təşkil edilib. Selanqor ştatının Petaling Jaya şəhərində açılan fotosərgi Azərbaycanın Malayziyadakı Səfirliyinin təşkilatçılığı və şəhər şurasının dəstəyi ilə Petaling Jaya İctimai Kitabxanasında təqdim edilib.

Açılış mərasimində Petaling Jaya Şəhər Şurasının sədri Tuan Mohamad Azhan, Azərbaycanın Malayziyadakı səfiri İrfan Davudov və yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.

M.Azhan belə bir nəcib təşəbbüsə ev sahibliyi etməkdən məmnun olduqlarını bildirərək, Azərbaycan və Malayziya xalqları arasında dostluq və qarşılıqlı etimada söykənən münasibətlərin əhəmiyyətini qeyd edib. O, dünyanın müxtəlif qitə və ölkələrində yaşayan xalqlar arasında əməkdaşlıq münasibətlərinin genişləndirilməsində mədəni-humanitar sahənin müstəsna rol oynadığını vurğulayaraq, sərginin də belə bir məqsədə xidmət etdiyini nəzərə çatdırıb.



İ.Davudov qonaqpərvərliyə görə şəhər şurasının sədrinə təşəkkür edərək, belə birgə tədbirin keçirilməsinin əlamətdar hadisə olduğunu bildirib. Azərbaycan tarixində və mədəniyyətində əvəzsiz yeri olan Şuşa şəhərinin 270 illiyi ilə əlaqədar 2022-ci ilin ölkəmizdə "Şuşa İli" elan olunduğunu diqqətə çatdıran diplomat, otuz ilə yaxın erməni işğalında qalan şəhərin və digər torpaqlarımızın 2020-ci ildə 44 günlük Vətən müharibəsində azad edildiyini deyib. Səfir Şuşa və işğaldan azad edilmiş digər ərazilərdə bərpa-quruculuq işlərinin getdiyini, işğal nəticəsində vəhşicəsinə dağıdılmış şəhər, rayon və kəndlərimizin yeni və daha gözəl şəkildə həyata qayıdacağını vurğulayıb.

Tədbirdə çıxış edən "Utusan Malaysia" qəzetinin əməkdaşı Thaqib Şaker bu ilin fevralında Şuşaya səfəri barədə təəssüratlarını tədbir iştirakçıları ilə bölüşüb.

Bədii hissədə Petaling Jaya Şəhər Şurasının nəzdində fəaliyyət göstərən incəsənət truppası Malayziyanın milli musiqi və rəqslərindən nümunələr nümayiş etdirib. Sonra sərgiyə baxış keçirilib.

# Azərbaycan-Rumıniya diplomatik münasibətlərinin 30 illiyi qeyd edilib




Azərbaycanla Rumıniya arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi münasibətilə iyunun 22-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında konsert təşkil edilib.

Konsertdən əvvəl Rumıniyanın ölkəmizdəki səfiri Vasile Soare və Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev çıxış ediblər.

Bildirilib ki, ötən illər ərzində ikitərəfli münasibətlər yüksələn xətt üzrə inkişaf edib. Azərbaycan və Rumıniya beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq edir. Azərbaycanda müxtəlif sahələrdə Rumıniyanın 14 şirkəti fəaliyyət göstərir. Eyni zamanda çox sayda azərbaycanlı Rumıniyada təhsil alır, işləyir.

Konsert proqramında dirijor, Xalq artisti Fəxrəddin Kərimovun idarəsi ilə Azərbaycan Dövlət Simfonik Orkestri çıxış edib.

# Tbilisidə Bülbülün xatirəsi yad olunub

Azərbaycan professional vokal sənətinin banisi, SSRİ Xalq artisti, professor Bülbülün (Murtuza Məşədi Rza oğlu Məmmədov) anadan olmasının 125 illiyi münasibətilə Tbilisidəki büstü ziyarət olunub.



Azərbaycanın Gürcüstandakı Səfirliyinin və M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyinin əməkdaşları, jurnalistlər Bülbülün Tbilisinin mərkəzində, Qorqosali küçəsindəki parkda ucaldılmış abidə önünə gül dəstələri düzüblər.

Səfirlik əməkdaşları Bülbülün həyat və fəaliyyətindən söz açıblar. Bildirilib ki, sənətkar Azərbaycanda professional vokal ifaçılığının əsasını qoyub. Onun ifa etdiyi xalq və bəstəkar mahnıları ("Sənsiz", "Sevgili canan", "Süsən sünbül", "Yaxan düymələ", "Xumar oldum" və s.) bu gündə sevilə-sevilə dinlənilir.

Qeyd edək ki, Bülbülün büstü Tbilisidə 2015-ci ildə M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyinin qarşısındakı parkda ucaldılıb. Abidənin müəllifi gürcü heykəltəraş Georgi Caparidzedir.

# Türkiyədə ənənəvi sənət ustaları dəstəklənir





Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Qeyri-maddi mədəni irs daşıyıcılarının qiymətləndirilməsi üzrə Şuranın iclasları başa çatıb. Nazirliyin Araşdırma və Təhsil Baş İdarəsinin koordinasiyası ilə keçirilən iclaslarda ümumilikdə 290 nəfərə "sənətkar vəsiqəsi" verilib.

Nazirlikdən verilən məlumata görə, alimlər, ekspertlər və sənətkarlardan ibarət Qiymətləndirmə Şurası ənənəvi əl sənətlərindən türk bəzək sənətinə, musiqidən teatra, aşıq ənənəsindən xalq şeirinə qədər bir çox sahələrdə 500-ə yaxın müraciəti dəyərləndirib.

Qiymətləndirmələr nəticəsində icra etdikləri sənəti ənənəvi yolla öyrənib öyrədə bilən, tarixi biliyə malik olan, sənətində müəyyən yetkinliyə çatmış 290 usta Xalq Mədəniyyəti Məlumat və Sənədləşmə Mərkəzində qeydiyyata alınıb. Beləliklə, Türkiyə Mədəniyyət və Turizm Nazirliyi Araşdırma və Təhsil Baş İdarəsi sözügedən mərkəzində qeydiyyatdan keçmiş irs daşıyıcılarının sayı 5270-ə yüksəlib.

Baş idarənin direktoru Okan İbiş bildirib ki, "sənətkar vəsiqəsi" olan şəxslər ölkə daxilində və xaricdə keçirilən sərgi, yarmarka və festival kimi mədəni tədbirlərə göndərilərək dəstəklənir. O, irs daşıyıcılarının mədəniyyət səfiri kimi ölkənin mədəni diplomatiyasına töhfə verdiklərini bildirib.

Həmçinin "sənətkar vəsiqəsi" sahiblərinin nazirliyin müxtəlif qurumlarla əməkdaşlıq çərçivəsində həyata keçirdiyi layihələrdən faydalanması nəzərdə tutulub. "Gördüyümüz bu işlər, mədəni irsimizin gənc nəsillər tərəfindən daha dərindən dərk edilməsinə və ölkəmizin qədim mədəni dəyərlərinin daxildə və xaricdə tanınmasına şərait yaradır", – deyə o bildirib.

**Mehparə Sultanova**
**Ankara**

# Dünyanın ən yaxşı aeroportları...



Dünya üzrə aviadaşıyıcılar və aeroportlar tərəfindən təqdim edilən xidmətlərin keyfiyyəti ilə bağlı davamlı tədqiqatlar aparan "SkyTrax" statistika şirkəti (Böyük Britaniya) növbəti reytinq siyahısını təqdim edib.

"Turister" saytında yayımlanan siyahıda birinci yeri Qətərin Doha şəhərindəki Hamad aeroportu tutur. "Qatar Airways" aviadaşıyıcısının daimi məkanı ikinci ildir reytinq siyahısında ilk yeri qazanır.

Ondan əvvəl 8 il ərzində reytinq siyahısında birinci olmuş Sinqapurun Çanqi hava limanı üçüncü yerdədir. Çanqi hava limanı "Singapore Airlines", "Jetstar Asia Airways", "Scoot" və "SilkAir" aviadaşıyıcıları üçün hab rolu oynayır.

Budəfəki siyahıda ikinci yeri isə Tokionun (Yaponiya) Haneda aeroportu tutur. O, "Dünyada ən təmiz aeroport" və "Asiyada ən yaxşı aeroport" nominasiyalarında qalib gəlib. Liderlərin ilk beşliyində 5-10 milyon sərnişinə xidmət edən ən yaxşı aeroport hesab edilmiş Narita (Yaponiya) və İnçxon (Cənubi Koreya) beynəlxalq hava limanları da var.

Reytinqdə ikinci beşlikdə Parisdəki Şarl de Qoll adına hava limanı, Münxen (Almaniya), İstanbul (yeni aeroport), Sürix (İsveçrə) və Osaka (Yaponiya) hava limanları var.

# ...və ən yaşamalı şəhərləri



Pandemiya tədbirlərinin yumşaldılmasından sonra Avstriyanın paytaxtı Vyana şəhəri yenidən dünyanın ən yaşamalı şəhərləri siyahısında birinciliyi qazanıb. Müvafiq renkinqi Böyük Britaniyanın "The Economist" jurnalı tərtib edib.

Ötən il 12-ci yerə düşən Vyana bu il birinci pilləyə yüksəlib. İlk beşlikdə sonrakı yerləri Kopenhagen (Danimarka), Sürix (İsveçrə), Kalqari, Vankuver (hər ikisi Kanada) şəhərləri tutub. Növbəti beşlikdə Cenevrə (İsveçrə), Frankfurt (Almaniya), Toronto (Kanada), Amsterdam (Niderland) və Osaka (Yaponiya) şəhərləri yer alıb.

Avropa şəhərlərinin ötən il renkinqdə aşağı göstəriciləri pandemiya ilə əlaqədar məhdudiyyətlərin həyat keyfiyyətinə sirayət etməsi ilə əlaqədar olub. 2021-ci ildə siyahıya Yeni Zelandiyanın Oklend şəhəri liderlik edib. Məhdudiyyətlərin aradan qaldırılması ilə Yeni Zelandiya, Avstraliya və Çin şəhərləri siyahıda liderliyi əldən veriblər.

"The Economist" həftəliyinin ənənəvi olaraq hazırladığı renkinqdə dünyanın 140 şəhəri üzrə dəyərləndirmə aparılır. Renkinqdə səhiyyə sistemi, təhsil, mədəniyyət və infrastruktur kateqoriyaları üzrə şəhərlər müqayisə edilir, eləcə də sosial təminat, siyasi sabitlik və ya ictimai asayişin səviyyəsi nəzərə alınır.

Xronoqraf

# Tarixdə bu gün

*Zamanın səhifələrində qalan olaylar, faktlar...*

**313 il əvvəl...**

**27 iyun 1709-cu ildə** Rusiya ilə İsveç arasında Poltava (indiki Ukrayna ərazisi) döyüşü olub. Çar I Pyotrun komandanlıq etdiyi qoşunlar XII Karlın ordusuna qalib gəlib, Rusiya Baltik dənizinə çıxış əldə edib.

**104 il əvvəl...**



**24 iyun 1918-ci ildə** Azərbaycan Xalq Cümhuriyyətinin ilk bayrağı qəbul edilib. Fətəli xan Xoyskinin başçılıq etdiyi Nazirlər Şurasının qərarı ilə qırmızı parça üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsvir edilmiş bayraq Cümhuriyyətin müvəqqəti dövlət rəmzi elan edilib. Azərbaycanın indiki üçrəngli bayrağı 1918-ci ilin 9 noyabrında qəbul olundu.

**26 iyun 1918-ci ildə** Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti ilk əlahiddə diviziyanın yaradılması barədə qərar qəbul edib. Cümhuriyyətin Hərbi Nazirliyinin təşkili barədə qərar avqustun 1-də verildi, nazirlik özü isə 1918-ci ilin dekabrında fəaliyyətə başladı. Prezident Heydər Əliyevin 22 may 1998-ci il tarixli fərmanı ilə 26 iyun Silahlı Qüvvələr Günü elan edilib.

**27 iyun 1918-ci ildə** Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Dövlət dili haqqında" qərar qəbul edib. Azərbaycan (türk) dili ölkə ərazisində dövlət dili elan olunub.

**84 il əvvəl...**

**24 iyun 1938-ci ildə** I çağırış Azərbaycan SSR Ali Sovetinə seçkilər keçirilib. 310 nəfərlik parlamentə 107 fəhlə, 88 kolxozçu və 115 ziyalı-qulluqçu seçilmişdi. Deputatların 72-si qadınlar idi.

**72 il əvvəl...**

**25 iyun 1950-ci ildə** Koreya müharibəsi başlayıb. Şimali Koreyanın (KXDR) qoşunları demarkasiya xəttini keçərək Cənubi Koreya (Koreya Respublikası) ərazisinə daxil olublar. 1948-1949-cu illərdə Şimali və Cənubi Koreya ərazisindən SSRİ və ABŞ-ın qoşunları çıxandan sonra iki ölkə arasında 38-ci paralel üzrə demarkasiya xətti çəkilmiş, Pxenyan Moskvanın, Seul isə Vaşinqtonun təsiri altında qalmışdı. Üç il sürən müharibə sərhədin 38-ci paralel üzrə bərpası ilə yekunlaşdı.

**47 il əvvəl...**

**25 iyun 1975-ci ildə** Portuqaliyanın müstəmləkəsi olan Mozambik müstəqilliyini elan edib. Afrikanın cənub-şərqində ən böyük dövlət (ərazisi 802 min kv.km) olan Mozambik "qara qitə"də müstəmləkəçiliyin son dayaqlarından idi.

**35 il əvvəl...**

**25 iyun 1987-ci ildə** Sov.İKP MK-nın plenumu "yenidənqurma" ("perestroyka") haqqında qərar qəbul edib. Baş katib Mixail Qorbaçovun elan etdiyi yeniləşmə kursu, ilk növbədə, sosial-iqtisadi islahatları nəzərdə tutsa da, tezliklə siyasi-ideoloji sahəni də əhatə etdi. "Yenidənqurma" siyasəti dörd il sonra SSRİ-nin süqutu ilə nəticələndi.

**30 il əvvəl...**

**25 iyun 1992-ci ildə** İstanbulda Türkiyə Prezidenti Turqut Özalın təşəbbüsü ilə keçirilən konfransda Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı təsis edilib. Yeni regional təşkilatın yaradılması barədə "İstanbul bəyannaməsi"ni 9 ölkə (Türkiyə, Rusiya, Ukrayna, Moldova, Rumıniya, Albaniya, Gürcüstan, Azərbaycan, Ermənistan) imzalayıb. 1995-ci ildə Yunanıstan, 1997-ci ildə Bolqarıstan, 2004-cü ildə Serbiya təşkilata üzv oldu.

**29 il əvvəl...**

**24 iyun 1993-cü ildə** Milli Məclis Bakını tərk edərək (18 iyunda) Naxçıvan MR Ordubad rayonunun Kələki kəndinə getmiş Prezident Əbülfəz Elçibəyin geri dönmək niyyətində olmadığını nəzərə alaraq, Konstitusiyanın müvafiq tələbi əsasında dövlət başçısı səlahiyyətlərinin Ali Sovetin sədrinə verilməsi barədə qərar qəbul edib.

**14 il əvvəl...**

**26 iyun 2008-ci ildə** Azərbaycan Milli Ordusunun 90 illik yubileyi münasibətilə Bakıda, Azadlıq meydanında hərbi parad keçirilib. Bu, 1992-ci ildən sonra Azərbaycanda müstəqillik tarixində keçirilən ikinci hərbi parad idi.

**Hazırladı: V.Orxan**

Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadə, ittifaqın idarə heyəti və üzvləri tanınmış musiqişünas, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Bəstəkarlar İttifaqının üzvü

**Aida Hüseynovanın**

vəfatından kədərləndiyini bildirir və mərhumun yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri**

# MƏDƏNİYYƏT

**Qəzet 1991-ci ilin yanvarından çıxır**

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya № AB 022279. İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 1799
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MƏDƏNİYYƏT QƏZETİ REDAKSİYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641